# YENİ AZƏRBAYCAN

01 may 2026-cı il, cümə
№ 075 (7142)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Avropa çempionatında tarixi qələbə...

## İlham Əliyev: Bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir



Bax səh. 2

# Nobel Sülh Mükafatına bir addım qaldı

Bax səh. 4

## 13-cü görüş...

Azərbaycanın Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının qurulması, davamlı sülhün formalaşdırılması istiqamətində apardığı siyasət öz nəticəsini verməkdədir. Ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması ilə yeni bir mərhələyə qədəm qoyan proses iki ölkənin nümayəndələrinin vasitəçisiz formatda keçirilən görüşləri ilə davam etdirilir - müvafiq komissiyaların görüşü zamanı detallar müəyyənləşdirilir, gələcək işlərin istiqamətləri razılaşdırılır. Yeri gəlmişkən, aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib.

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası zamanı delimitasiya üzrə ekspert qruplarının iş qaydası haqqında Təlimat”, “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya xəritəsinin hazırlanması haqqında Təlimat”, “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası...

Bax səh. 3

## Azərbaycanın qlobal şəhərsalma və urban siyasətində artan rolu



Bax səh. 5

## “Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi”

Bax səh. 5

## Siyasi məsləhətləşmələr...

Bax səh. 3

## Hörmüz boğazı kimlərin üzünə açıqdır?

Bax səh. 6

## 12-ci telefon danışığı...

Bax səh. 7

## “Ümummilli Liderin siyasi irsi”

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Sumqayıt şəhər təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan “Ümummilli Liderin siyasi irsi” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb.

Sonra Sumqayıt şəhər Heydər Əliyev Mərkəzi ziyarət edilib.

Mərkəzdə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ümummilli Liderin ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi islahatlar və irimiqyaslı layihələr Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam və inkişaf etdirilir.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsinin...

Bax səh. 4



## Aİ yeni təhlükəsizlik çətiri axtarışında



## ABŞ pul siyasətini dəyişmədi

# Avropa çempionatında tarixi qələbə...

## İlham Əliyev: Bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir



Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniyanın paytaxtı Tiranada keçirilmiş Avropa çempionatında komanda hesabında Avropa çempionu olan yunan-Roma güləşi və sərbəst güləş, həmçinin qadın güləşi üzrə medal qazanmış idmançıları və onların məşqçilərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Salaməleyküm, əyləşin.

İlk növbədə, milli komandamızı Tiranada keçirilmiş Avropa çempionatında qazandığı böyük qələbə münasibətilə təbrik edirəm. Bu qələbə bizim hamımızı sevindirdi. Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər. Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Xüsusilə nəzərə alsaq ki, bu gün həm dünyada, həm Avropada güləş üzrə mübarizə daha gərgin keçir, bir çox ölkələrdən olan tanınmış güləşçilər böyük nəticələr göstərirlər və mübarizə də çox gərgin idi. Bəzi yarışları mən də izləmişəm və görmüşəm ki, bizim idmançılarımız öz peşəkarlığını göstərərək rəqibləri ədalətli mübarizədə məğlub etmişlər. Bu, əlbəttə, bütün xalqımızı sevindirir və bir daha göstərir ki, güləşimiz uğurla inkişaf edir. Güləşimizin böyük ənənələri var və biz bu ənənələri yaşadırıq. Şadam ki, tanınmış güləşçilərlə bərabər gənc güləşçilərimiz də böyük nəticələr əldə edirlər. Bu onu göstərir ki, məşq prosesi, seleksiya prosesi düzgün qurulubdur. Bu münasibətlə federasiyanı təbrik edirəm, məşqçiləri təbrik edirəm və əlbəttə ki, ilk növbədə, idmançıları.

Hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılanda bütün Azərbaycan xalqı qürur hissi keçirir, sevinir. Bu qələbə sevincini idmançılarımız xalqımıza bəxş edir və bu da öz növbəsində gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün çox önəmli amildir. İdman, ümumiyyətlə, cəmiyyətimizin ayrılmaz hissəsidir və xüsusilə son illər ərzində idmanda gedən müsbət proseslər, əlbəttə ki, hamımızı sevindirir.

Federasiyaya gəldikdə onu da qeyd etməliyəm ki, bizim tanınmış idmançılarımız, Olimpiya çempionları federasiya rəhbərliyində təmsil olunurlar. Məşqçilər arasında da tanınmış idmançılar təmsil olunur. Bu gün məşqçi kimi fəaliyyət göstərən idmançıların yarışlarını vaxtilə mən özüm izləmişəm, həm Bakıda, həm Olimpiya Oyunlarında onlara azarkeşlik etmişəm. İndi isə onların yetirmələri bizi sevindirir. Bax belə, nəsillər dəyişdikcə güləş və bütövlükdə idman Azərbaycanda nəinki yaşayır, hətta inkişaf edir və yeni zirvələrə çatır. Nəsillər dəyişir, amma bir şey dəyişmir, o da Azərbaycan idmanının uğurları.

Əlbəttə, indi federasiya, xüsusilə bölgələrdə olan gənc idmançıları məşq, təlim toplanışlarına cəlb etmək üçün işini bundan sonra da təkmilləşdirəcək. Çünki bu gün hər bir bölgədə həm Olimpiya İdman kompleksləri var, eyni zamanda, güləş zalları. Ona görə bu seleksiya işi, əlbəttə ki, gələcək uğurlarımızın əsasını təşkil edəcək.

Azərbaycan idmanının ümumi inkişafına gəldikdə hər şey göz qabağındadır. Həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında bizim idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edirlər. Əlbəttə ki, uğurlarla bərabər məğlubiyyətlər də olur. Amma idmanda hər şey mümkündür. Əsas odur ki, idmançılarımızda qələbə əzmi çox güclüdür və bir daha ölkəmizin ümumi inkişafını əks etdirir. Bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir.

Mən sizi bu münasibətlə bir daha təbrik edirəm. Mənim idmançılarla görüşlərim müntəzəm xarakter daşıyır. 30 ilə yaxın müddət ərzində Azərbaycan Olimpiya Komitəsinə rəhbərlik edirəm. Bu 30 ilə yaxın müddət ərzində, əlbəttə ki, bir çox müsbət məqamlar olub. Əsas odur ki, idmanın dayanıqlı inkişafı, uğurlarımızın ardıcıl şəkildə davam etməsi və gənc nəslin yetişməsi - hər şey mənim gözümün önündə keçib. Görün, neçə nəsil dəyişib, amma bu gün biz yenə də uğurlarla fəxr edirik. Əsas budur və əminəm, həm Güləş Federasiyası, həm bizim digər federasiyalarımız gələcəkdə öz işlərini elə quracaqlar ki, Azərbaycan xalqı idman yarışlarına baxanda daim sevinc hissləri keçirsin.













Əlbəttə, ölkəmizdə keçirilən idman yarışları idman növlərini populyarlaşdırır. Bizim təcrübəmiz də böyükdür, çox böyük beynəlxalq yarışlar keçirmişik, həm Avropa Oyunlarını, həm İslam Həmrəyliyi Oyunlarını. Bunlar demək olar ki, Yay Olimpiya Oyunlarının səviyyəsinə çox yaxındır. Keçən il MDB Oyunlarını özü də paytaxtda yox, bölgələrdə keçirmişik. Yəni bu onu göstərir ki, çox güclü potensial var və idmana, idmançılara qayğı dövlət siyasətidir. Əminəm ki, idmançılar da bunu görür və hiss edirlər. Bir daha sizi təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

x x x

Sonra idmançılar çıxış etdilər.

Sərbəst güləşçi Turan Bayramov dedi: Cənab Prezident, ilk növbədə, dəyərli vaxtınızı ayırıb bizi qəbul etdiyiniz üçün sərbəst güləş milli komandası adından Sizə təşəkkürlərimizi bildiririk. Ölkəmizi Avropa çempionatında layiqincə təmsil etdik. Komandamız ardıcıl surətdə ikinci dəfədir Avropa çempionu olur. Sizin bizi qəbul etməyiniz məsuliyyətimizi daha da artırır, bizə böyük bir stimul verir. Mən də inanıram və alimdən gələni edəcəyəm ki, gələcəkdə qarşınıza qızıl medalla çıxım.

Yunan-Roma güləşçisi Həsrət Cəfərov dedi: Cənab Prezident, ilk növbədə, Sizi salamlayıram. Bizi qəbul etdiyiniz üçün çox sağ olun. Bildiyiniz kimi, Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında qızıl medal qazandım. Bu, mənim ümumilikdə dördüncü qızılımdır və yarış həqiqətən də çox çətin keçdi. Dördqat Avropa çempionu kimi Azərbaycan yunan-Roma güləşi tarixində bir rekorda imza atdım. Bizi belə dəstəklədiyiniz, bizə göstərdiyiniz diqqət və qayğı üçün Sizə öz təşəkkürümüzü bildiririk. Sizin diqqət və qayğınız bizim üçün ən böyük məsuliyyətdir. Çox sağ olun.

Qadın güləşçi Jalə Əliyeva dedi: Cənab Prezident, bu gün burada çıxış etmək mənim üçün böyük şərəfdir. Mən dörd il bundan qabaq da Sizinlə görüşdə iştirak etmişdim. 23 yaşadək güləşçilər arasında Avropa çempionu olmuşdum. Bu dəfə isə böyüklərdən ibarət yarışda Avropa mükafatçısı oldum. Biz Sizin diqqət və qayğınızı hər zaman hiss edirik. Bizi dəvət etdiyiniz üçün təşəkkür edirəm. Çox sağ olun.

x x x

Prezident İlham Əliyev dedi: Çox sağ olun. Komandamız çoxmillətlidir, hələ hamı Azərbaycan dilini kifayət qədər bilmir, ona görə də rus dilində bir neçə söz demək istərdim. Hamını bir daha təbrik etmək və Azərbaycanı beynəlxalq arenada belə layiqincə təmsil etdiyinizə görə təşəkkürümü bildirmək istərdim. Əlbəttə, Avropa çempionatında belə bir mühüm, deyərdim ki, tarixi qələbədən danışarkən xüsusi qeyd etmək istərdim, həm yunan-Roma güləş növündə, həm də sərbəst növdə güləşçilər birinci yeri qazanıblar. Yəni bu, çox əhəmiyyətlidir.

Qızlara gəldikdə onların da medalçılar arasında olmalarına çox şadam. Bu, qızlar arasında da gənc nəslin güləşə böyük maraq göstərdiyindən xəbər verir. Əminəm ki, gələcəkdə də qızlar qızıl medal qazanacaqlar, mən buna şübhə etmirəm. Qızlar arasında medalçılar daha çox ola bilərdi, amma kiminsə bəxti gətirmədi. Ola bilər ki, hər hansı səhvlər də oldu, lakin bu mühümdür, çünki həm sərbəst, həm yunan-Roma, həm də qadın güləşi üzrə bütün istiqamətlər Azərbaycanda inkişaf edir.

Milli komandada belə yaxşı abhavanın, ruh yüksəkliyinin olmasına çox şadam, hamı vahid ailə kimi bir-birinin uğuruna, qələbəsinə sevinir və bu, çox qiymətlidir.

Əlbəttə, qeyd etməli olduğum daha bir vacib məqam ondan ibarətdir ki, tanınmış idmançılar daim cəmiyyətin diqqət mərkəzindədirlər. İdmançılarımızın həm cəmiyyətdə, həm də məişətdə özlərini layiqincə aparmaları məni eyni dərəcədə çox sevindirir. Məşhur idmançıların, çempionların adi həyatda məhz bu səviyyəni saxlaya bilmədiklərinə dair tarixdə çoxlu nümunələr var və bir müddət sonra onlara idmançı kimi münasibət həmin səhvlər və ya yanlış hərəkətlər ucbatından pis istiqamətdə dəyişir. Bizdə isə artıq dediyim kimi, ən azı mənim təqribən 30 ildir Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyim dövrdə xatırladığıma görə, belə hallar olmayıb. Bu, çox vacibdir. Medallardan heç də az əhəmiyyətli olmayan odur ki, çempionlar və mükafatçılar, həmçinin cəmiyyətdə və çalışdıqları kollektivlərdə yüksək mənəvi keyfiyyətlər nümayiş etdirsinlər. Bu belə də olmalıdır. Əlbəttə ki, burada çempionlarımızın - Olimpiya çempionlarının, Avropa çempionlarının və dünya çempionlarının nümunəsi var. Dediyim kimi, vaxtilə federasiyaya rəhbərlik edənlərə və məşqçilərə azarkeşlik etmişəm, bu gün isə onlar öz tələbələrinə azarkeşlik edirlər. Bu, bizim regionumuzda ənənələrin davamlılığıdır. Tarixdə ənənələr həmişə mühüm rol oynayıb və bu, Azərbaycan cəmiyyətində və bütövlükdə Qafqaz regionunda davam edir. Bu, bizi daha da yaxınlaşdırır.

Buna görə də idmançılarımızın həm mübarizə meydanında, həm də ondan kənarda özlərini necə ləyaqətli apardıqlarını xüsusi vurğulamaq istərdim. Hakim səhvləri və ya ədalətsizliklər baş verdikdə belə, ləyaqətli davranışı qorumaq həmişə vacibdir. Çünki bəzən qərəzlilik olur - biz bunu Azərbaycan idmançılarına qarşı təkcə güləşdə deyil, xüsusən də Avropa yarışlarında dəfələrlə görmüşük. Maraqlıdır, bir qayda olaraq Avropa yarışlarında Azərbaycan idmançılarına qarşı ədalətsizlik dünya çempionatlarına nisbətən daha çox olur. Yəqin ki, Avropada heç də hamı Azərbaycanın Avropa çempionatlarında iştirak etməsinə və təkcə iştirakına deyil, həm də bütün Avropa ölkələrinə qalib gəlməsinə sevinmir.

Məhz bu səbəbdən bir daha məmnunluqla qeyd etmək və arzulamaq istərdim ki, harada olmağınızdan asılı olmayaraq, - xalça üzərində və xalçadan kənarda, - layiqli davranış prinsiplərinə daim sadiq qalmağa davam edəcəksiniz. Bu, ölkəmizi təmsil edən bütün idmançılara aiddir.

Beləliklə, bir daha təbrik edirəm və yeni qələbələr arzulayıram. Sağ olun.

# 13-cü görüş...

## Ermənistan ilə Azərbaycan arasında növbəti ikitərəfli müzakirələr

### Nələr müzakirə edildi, nələr razılaşdırıldı?

Azərbaycanın Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının qurulması, davamlı sülhün formalaşdırılması istiqamətində apardığı siyasət öz nəticəsini verməkdədir. Ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması ilə yeni bir mərhələyə qədəm qoyan proses iki ölkənin nümayəndələrinin vasitəçisiz formatda keçirilən görüşləri ilə davam etdirilir - müvafiq komissiyaların görüşü zamanı detallar müəyyənləşdirilir, gələcək işlərin istiqamətləri razılaşdırılır. Yeri gəlmişkən, aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib.

**Təlimat layihələrinin mətnləri razılaşdırılıb...**

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar. Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası zamanı delimitasiya üzrə ekspert qruplarının iş qaydası haqqında Təlimat", "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya xəritəsinin hazırlanması haqqında Təlimat", "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya sənədlərinin tərtibatı və nəşri qaydası haqqında Təlimat" layihələrinin mətnlərini razılaşdırıb və mübadilə ediblər. Tərəflər bu təlimatların müvafiq qaydada təsdiq edilməsi üçün öz hökumətlərinə müraciət etmək barədə razılığa gəliblər. Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazisi ilə Ermənistan Respublikasına yüklərin tranziti uğurla həyata keçirilir və hazırda da davam edir. Məmnunluqla vurğulanıb ki, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi iki ölkə arasında iqtisadi-ticari əlaqələrin formalaşmasının göstəricisidir. Həmçinin tərəflərin işgüzar dairələrinin nümayəndələrinin iştirakı ilə iqtisadi-ticari əməkdaşlığın inkişafı, malların və xidmətlərin qarşılıqlı tədarükü, həmçinin tranzit daşımaları məsələləri müzakirə olunub. Komissiyaların görüşünün yekunlarına dair müvafiq Protokol imzalanıb.

**İkitərəfli, vasitəçisiz görüşlərin yaratdığı effekt...**

2023-cü ilin payızından etibarən iki dövlətin müvafiq delimitasiya komissiyaları arasnda baş tutan bu görüşlər, aparılan müzakirələr və əldə edilən razılaşmalar bir faktı önə çıxarıb - üçüncü tərəfin iştirakı olmadan Azərbaycan və Ermənistan öz aralarında vacib məsələlərlə bağlı razılıq əldə etmək imkanındadırlar. Bu kimi görüşlər növbəti mərhələlərdə görüləcək işlərlə bağlı yeni perspektivlər formalaşdırır. Bu isə öz növbəsində sülhü daha da yaxınlaşdırır - dövlət sərhədlərinin müəyyənləşməsi, delimitasiya və demarkasiyanın həyata keçirilməsi qarşıdakı dövrdə münasibətlərin normallaşması üçün də stimul yaradır. Xüsusilə, hazırki sülhlə bağlı Vaşinqton prosesinin daha da irəliyə aparılması istiqamətində səylərin və iradələrin nümayişi, mövqelərin daha da yaxınlaşmasına yol açır - məhz ikitərəfli təmaslar nəticəsində iki ölkənin müvafiq dövlət strukturları arasında birgə açıqlamalar yayılır. Bu isə yeni dövrdə prosesin daha da inkişaf etdirilməsində olduqca əsaslı nəticələr verə bilər.

**Ermənistan sülh prosesinin dividendlərini öz həyatında hiss edir...**

Azərbaycan hər zaman sülhün və beynəlxalq hüququn tərəfdarı kimi çıxış edib - hətta 30 illik işğal dövründə belə ölkəmiz sülhpərvər mövqedən geri çəkilməyib. Ardıcıl olaraq bu istiqamətdə addımların davam etdirilməsi isə Vaşinqtonda iki ölkənin sülh sazişinin paraflanmasını imzalanması ilə nəticələnmişdi - yəni, Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan proseslər münasibətlərin yaxınlaşmasında əsaslı rol oynayır. Birmənalı şəkildə qeyd olunmalıdır ki, uğurlu nəticəyə imza atılması yenə də Azərbaycanın adı ilə bağlıdır - illərdir ki, ikitərəfli təmasların yarada biləcək üstünlüklərini önə çəkən dövlətimiz Ermənistanın da vasitəçisiz olaraq danışıqlar aparmasına nail oldu. İndiki mərhələdə isə Ermənistanın sülh qarşılığında əldə edəcəyi üstünlüklər əyani şəkildə ortaya qoyulur. Artıq Azərbaycan Ermənistana neft məhsulları ixrac edir, ölkəmizdən tranzit şəkildə İrəvana doğru yüklərin keçiriliməsinə şərait yaradır. Zəngəzur dəhlizinin (TRİPP) açılması ilə bağlı razılığın əldə olunması isə bütövlükdə Cənubi Qafqaz regionu üçün, fərdi olaraq isə Ermənistan üçün geostrateji, geoiqtisadi, geosiyasi mənada yeni üfiqlər açmaqla yanaşı, yaşadığımız coğrafiyada dövlətlərarası münasibətlərə yeni bir ruh qazandırır. Artıq Cənubi Qafqaz Şərq-Qərb, Şimal-Cənub qlobal cəhətlərarası münasibətlərdə əsaslı dönüş nöqtəsi rolunu oynayacaq. Sülh prosesində əsaslı yolun gedildiyini nəzərə alsaq, bu kimi görüşlər və müzakirələr qısa zamanda nəticəyə nail olunacağına da ümid yaradır. Azərbaycanın mövqeyi hər zamankı kimi, açıq və şəffafdır: Bakı Cənubi Qafqazda əbədi sülhün yaranması, qütblərarası münasibətlərdə yeni bir cığırın açılması, qlobal inteqrasiyanın sürətlənməsi üçün səy göstərir. Yeni ticari münasibətlərin ən vacib geostrateji nöqtəsi sayılan Cənubi Qafqazın sabit və inkişafa yönəlik üstünlükləri göz önünə çıxarıldılır və bütün bunlar yeni dividendlər vəd edir.



**Sülh üçün səfərbərlik - Vaşinqton prosesi uğurlu nəticə vəd edir**

Ən mühüm nümunə də məhz Vaşinqton görüşünə ev sahibliyi etmiş ABŞ-ın məsələyə münasibətidir. Rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir və Prezident Tramp bu faktı həm imzası ilə təsdiqləyib, həm də görüşdən sonra dəfələrlə dilə gətirib. Azərbaycan liderinin fəaliyyətini yüksək dəyərləndirməklə, ölkəmizi etibarlı tərəfdaş adlandırmaqla Prezident Tramp bir daha ABŞ-ın Azərbaycanla strateji əlaqələrdə maraqlı olduğunu ortaya qoyub. Çünki Bakının qətiyyəti ilə yaranan sülh prosesi bütövlükdə qlobal ticarətə yeni bir stimul qazandıracaq. Bunun üçün isə Ermənistan sülhlə bağlı son addımlarını tezləşdirməlidir. Ən əsas şərt isə rəsmi İrəvanın özünün Konstitusiyasında dəyişiklik etməsi, Azərbaycana qarşı olan əsassız torpaq iddialarından əl çəkməsi və sülhün, sabitliyin davamlı, əbədi olmasına töhfə verməsidir. Ortadakı razılaşmalar, rəsmi İrəvanın bu yöndəki yanaşması isə yeni dövr üçün mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Ermənistanın dövlət sərhədlərinin müəyyənləşidirilməsi ilə bağlı prosesin inkişafına tərəfdar olduğunu bildirməsi, özlüyündə regional sabitlik üçün müəyyən təkandır. Eləcə də Konstitusiya dəyişikliyi ilə bağlı müsbət siqnalların verilməsi prosesin müsbət nəticəyə daha da yaxınlaşmasını təmin edir. Beləliklə, yaxın gələcək üçün proqnozlaşdırılan hadisələrin inkişafı geostrateji baxımdan Cənubi Qafqazda sabitliyin təminini zəruri edir - həm iqtisadi yönümlü layihələrin reallaşması, həm də siyasi trafiklərin fonunda bölgə ilə bağlı reallıqların daha da irəliyə aparılması üçün bu kimi görüşlər, müzakirələr və təmas olduqca vacib təsir bağışlayır.

***P.İSMAYILOV***

# Siyasi məsləhətləşmələr...

## Azərbaycanın beynəlxalq proseslərdə rolu güclənir

Hazırda beynəlxalq münasibətlər sistemində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda yeni çağırışlar meydana gəlir. Belə bir geostrateji şəraitdə milli dövlətlərin qlobal sistemdə yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətdən də asılıdır. Bu kontekstdə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir.

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.




## Bir sıra ölkələrlə siyasi məsləhətləşmələr aparılıb

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Bu amil dövlətimizin beynəlxalq təşkilatlarda təmsilçiliyində də mühüm rol oynayır. Azərbaycan hazırda regional miqyaslı, qlobal xarakterli əməkdaşlıq platformasının mərkəzi oyunçusu rolunu oynayır. Məhz bunun nəticəsində də dünyada Azərbaycanın dostları artmaqdadır. Bir çox ölkələr Azərbaycanı dost və etibarlı tərəfdaş hesab edir. Ölkəmizin nüfuzu müxtəlif ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə də xüsusi vurğulanır. Son günlər ölkəmizə diplomatik səfərlərin artması, eləcə də müxtəlif ölkələrlə siyasi məsləhətlərin aparılması da bu reallığın göstəricisidir.

Yeri gəlmişkən, Podqoritsa şəhərində Azərbaycan və Monteneqro Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Monteneqro nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin dövlət katibi Perişa Kastratoviç rəhbərlik edib.Məsləhətləşmələr çərçivəsində ikitərəfli əməkdaşlıq məsələləri üzrə siyasi əlaqələrin cari vəziyyəti nəzərdən keçirilib, mövcud siyasi dialoqun gücləndirilməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Bununla yanaşı, iqtisadi, enerji, turizm və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, eləcə də ölkəmiz tərəfindən həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb.

Belqrad şəhərində isə Azərbaycan ilə Serbiyanın Xarici İşlər nazirlikləri arasında sayca üçüncü konsulluq məsləhətləşmələri keçirilib. Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Serbiya nümayəndə heyətinə isə Serbiya xarici işlər nazirinin konsulluq məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Nataşa Raşeviç rəhbərlik edib.Məsləhətləşmələr zamanı Serbiya ilə konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən sahə üzrə yeni ikitərəfli sənədlərin imzalanması imkanları nəzərdən keçirilib.Bununla yanaşı, konsulluq sahəsində həyata keçirilmiş son yeniliklər, o cümlədən konsulluq xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində hər iki ölkənin mövcud təcrübəsi və tətbiq olunan mexanizmlər ətrafında fikir mübadiləsi aparılıb, bu sahədə əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübələrin qarşılıqlı tətbiqi imkanları nəzərdən keçirilib. Habelə iki ölkə arasında miqrasiya, ədliyyə, təhsil, əmək və sosial müdafiə sahələrində əlaqələrin gücləndirilməsinin vacibliyi vurğulanıb.Görüşdə böhran vəziyyətlərində vətəndaşların konsulluq müdafiəsinin səmərəli təmin edilməsi və əmək miqrasiyasının tənzimlənməsi ilə bağlı da fikir və təcrübə mübadiləsi aparılıb.



Bundan əlavə, aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Kolumbiyanın xarici işlər nazirinin müavini Xuana Kastro Santamarianın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüş zamanı Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.Tərəflər siyasi dialoqun genişləndirilməsi, iqtisadi-ticarət əlaqələrinin təşviqi, habelə bir sıra qarşılıqlı maraq doğuran sahələrdə, o cümlədən turizm, viza liberallaşdırılması, təhsil, mədəniyyət, humanitar, tələbə mübadiləsi, parlamentlərarası əlaqələr və bir sıra digər əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Eyni gündə, Azərbaycan və Kolumbiya arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Elnur Məmmədov, Kolumbiya tərəfdən isə xarici işlər nazirinin müavini Xuana Kastro Santamaria rəhbərlik edib.

Ceyhun Bayramov Uruqvay Şərq Respublikasının xarici işlər nazirinin müavini Valeriya Çukasini də qəbul edib. Görüşdə Azərbaycan ilə Uruqvay arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər siyasi dialoqun dərinləşdirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və institusional əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.Bununla yanaşı, vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılması məqsədilə viza rejiminin liberallaşdırılması istiqamətində mümkün addımlar müzakirə olunub.

Azərbaycan və Uruqvay arasında siyasi məsləhətləşmələrin növbəti iclası da keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Elnur Məmmədov, Uruqvay tərəfindən isə xarici işlər nazirinin müavini Valeriya Çukasi rəhbərlik edib.

## Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ikinci iclası...

Bu həftə ərzində Bakı şəhərində Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ikinci iclası da keçirilib. İclasa komitənin həmsədrləri qismində Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, BƏƏ tərəfindən isə dövlət naziri Saeed Al Hajeri rəhbərlik ediblər.Komitənin işi çərçivəsində nazir müavini Y.Rəfiyev və dövlət naziri S.Al Hajeri arasında təkbətək görüş keçirilib. Daha sonra həmsədrlərin rəhbərliyi, hər iki ölkənin səfirlərinin və aidiyyəti dövlət qurumları nümayəndələrinin iştirakı ilə geniştərkibli iclas baş tutub. Alt komitələr tərəfindən təqdim olunan hesabatlar əsasında əməkdaşlığın müxtəlif sahələr üzrə inkişafı müzakirə edilib.



Görüş çərçivəsində ötən ilin noyabr ayında Əbu-Dabidə baş tutmuş komitənin ilk iclasından bu yana görülmüş işlər nəzərdən keçirilib, əldə olunmuş nəticələr qiymətləndirilib, eləcə də qarşıdakı dövr üçün prioritet istiqamətlər, konkret təşəbbüslər və birgə layihələr üzrə fikir mübadiləsi aparılıb.Həmsədrlər komitənin ilk iclası çərçivəsində razılaşdırılmış yol xəritəsi və iş planlarının icra prosesini müsbət qiymətləndirərək, konkret nəticələrə yönəlmiş əməkdaşlığın daha da dərinləşdirilməsinin əhəmiyyətini vurğulayıblar. Bununla yanaşı, qarşıdakı dövr üçün yeni təşəbbüslərin irəli sürülməsi, mövcud mexanizmlərin daha da təkmilləşdirilməsi və əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi ilə bağlı razılıq ifadə olunub.

İclasda Xarici İşlər Nazirliyi ilə yanaşı, Azərbaycan tərəfindən İqtisadiyyat, Energetika, Ədliyyə, Müdafiə, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat, Elm və Təhsil, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin, habelə Dövlət Turizm Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, SOCAR, Azərbaycan İnvestisiya Holdinqi və AZCON Holdinqin nümayəndələri iştirak ediblər.

## Koreya Azərbaycanın UNESCAP-a sədrliyindən məmnundur

Bundan əlavə, xarici işlər naziri Ceyhun Bayramov ilə Koreyanın xarici işlər naziri Ço Hyon arasında telefon danışığı aparılıb.Telefon danışığı zamanı Azərbaycan ilə Koreya Respublikası arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin regional əməkdaşlıq məsələləri müzakirə olunub.Ölkəmizdə həyata keçirilən bir sıra layihələrdə Koreya şirkətlərinin iştirakının əhəmiyyəti vurğulanaraq, iqtisadi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğu qeyd olunub.

Söhbət zamanı Xarici İşlər nazirlikləri arasında məsləhətləşmə mexanizminin və qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.Həmçinin, Azərbaycanın BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasında (UNESCAP) sədrliyinin məmnunluqla qarşılandığı Koreya tərəfindən vurğulanıb.Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Nardar BAYRAMLI***

# Nobel Sülh Mükafatına bir addım qaldı

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görüldü. Bu, İlham Əliyevin dünyanı sülhə səsləməsi istiqamətində əldə etdiyi növbəti uğur idi. Prezident bildirib ki, Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir: "Bu mükafatın 26 aprel - Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrdən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm".

Onun sözlərinə görə, Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır: "30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq".

Xatırladım ki, İlham Əliyev bu ilin yanvar ayında Birləşmiş Ərəb Əmirliklərinin banisi, mərhum Şeyx Zayed bin Sultan Al Nəhyanın adını daşıyan nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na Azərbaycan və Ermənistan arasındakı sülh təşəbbüsünə görə layiq görülmüşdü. Hər iki mükafat İlham Əliyevin sülhə nə qədər sadiq olduğunun əyani sübutudur.

Dünyanın geosiyasi və geoiqtisadi gündəmini düzgün qiymətləndirən ən islahatçı Prezident verdiyi bütün sözlərə, vədlərə daim sadiqliyi ilə Azərbaycana dünyada ən etibarlı tərəfdaş statusunu qazandıraraq nüfuzunu yüksəldib. Yəni İlham Əliyevin yürütdüyü xarici siyasət nəticəsində Azərbaycan istər beynəlxalq təşkilatlar, forumlar, istərsə də ayrı-ayrı ölkələr səviyyəsində inanılmış və güvənli bir tərəfdaş kimi qəbul edilir.

Hazırda Azərbaycan Avropanın enerji təminatında açar rolunu oynayan ölkələrdən biri kimi qəbul olunur. Bu, ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunur. Prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaş ölkələrin dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib. Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəmərini, habelə digər enerji layihələrini reallaşdırmaqla yeni rekordlara imza atıb. "Əsrin müqaviləsi" ilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasını uğurla davam etdirən İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən layihələr, əlbəttə ki, Azərbaycanın gələcək uğurlarının zəmanətidir. Azərbaycanın iştirakı olmadan regionda hansısa bir qlobal layihənin həyata keçirilməsi mümkünsüzdür.

Bütün bunlar İlham Əliyevin enerji diplomatiyasının uğurla həyata keçirilməsinin bariz təcəssümüdür. Bu diplomatiya Azərbaycanın iqtisadi potensialını getdikcə daha da gücləndirir və əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

Bu gün İlham Əliyevin əsas missiyalarından biri də İkinci Qarabağ müharibəsinin yaratdığı reallıqlara uyğun siyasət həyata keçirmək və bölgədə sülhün təmin olunması üçün əməli işlər görməkdir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin prioriteti regionda ilk növbədə sülhün təminatıdır. Çünki sülh olmadan Qafqazda təhlükəsizliyin təminatı sual altında qalacaq. Bu da ilk növbədə qlobal iqtisadi layihələrin reallaşmasına, bölgənin nəqliyyat-kommunikasiya imkanlarının genişlənməsinə əngəl yaradacaq. Eyni zamanda, xarici investorları regiona sərmayə yatırmaq fikrindən daşındıracaq. Yox əgər sülh müqaviləsi imzalanarsa, bundan ilk növbədə yararlanan elə Ermənistan olacaq. Başqa sözlə desək, İlham Əliyev məğlub etdiyi Ermənistana sülh təklifi etməklə həm də onun dirçəlməsinə köməklik göstərmək istəyir.

İlham Əliyevin sülh missiyası həm Azərbaycan, həm də Ermənistan üçün siyasi və iqtisadi uğurlar vəd edir. Beynəlxalq birliyin, regionda marağı olan dövlətlərin də istəyi Cənubi Qafqazda təhlükəsizliyin təminatıdır.

Dünyanın nüfuzlu liderləri də İlham Əliyevin sülh istiqamətində atdığı addımları təqdir edir və onun nə qədər nəhəng siyasətçi olduğunu öz açıqlamalarında dönədönə vurğulayırlar. Məsələn, ABŞ Prezidenti Donald Trampın "Siz böyük idersiniz. Siz gözəl danışıq aparırsınız..." sözləri buna nümunə ola bilər.

Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Donald Trampın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderlik keyfiyyətləri ilə bağlı səsləndirdiyi bu fikir ölkə başçımızın dünya miqyaslı siyasətçi və dövlət xadimi olduğunu, dünya liderləri tərəfindən tanınan siyasətçi kimi qəbul edildiyinin bir daha bariz sübutudur.

Prezident İlham Əliyevin dünya liderlərinin dəvəti ilə mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, xarici səfərlərdə ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun göstəricisidir. Mürəkkəb geosiyasi şəraitdə Şərq və Qərb dövlətləri ilə əməkdaşlıq münasibətlərini böyük siyasi bacarıqla tarazlaşdıran Prezident İlham Əliyev beynəlxalq aləmdə XXI əsrin liderlik nümunəsidir.

ABŞ-ın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Uitkoff bir neçə ay öncə beynəlxalq forumda çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev haqqında diqqətçəkən fikirlər səsləndirib.

O, çıxışında dünyada seçilən liderlərdən bəhs edərkən İlham Əliyevi xüsusi vurğulayıb və belə deyib:

"Dünyada bir sıra güclü liderlər var. Mən İlham Əliyevi xüsusi qeyd etmək istəyirəm. O, ölkəsini dəyişdirən xüsusi liderdir."

Uitkoff qeyd edib ki, bu cür liderlər yalnız öz ölkələrində deyil, qlobal miqyasda da mühüm rol oynayırlar:

"Belə liderlər dünya üçün vacibdir, çünki onlar sabitlik yaradır və əməkdaşlıq üçün imkanlar açır". ABŞ rəsmisi əlavə edib ki, bu tip liderlərlə qurulan münasibətlər beynəlxalq siyasətdə mühüm əhəmiyyət daşıyır: "ABŞ Prezidenti Donald Tramp məhz belə liderlərlə işləməyə üstünlük verir və bu, qlobal proseslərə müsbət təsir göstərir".

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik videomüraciətində İlham Əliyevin müdrik və düşünülmüş rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərindən fəxr hissi duyduğunu bildirib:

"İlham Əliyev Qafqazda və onun hüdudlarından kənarda sülh və sabitliyin qətiyyətli carçısı kimi tanınır. Pakistan həmin Sazişi nəinki Azərbaycan və Ermənistan, o cümlədən bütöv region üçün yeni əmin-amanlıq və dayanıqlı sülh dövrünün başlanğıcı kimi alqışladı. Mən əziz qardaşım, Prezident İlham Əliyevi bu nüfuzlu mükafatı alması münasibətilə bir daha təbrik edirəm. Ümidvaram və dua edirəm ki, uzaqgörən rəhbərin səyləri ilə qardaş Azərbaycan xalqı uzunmüddətli sülhə, əmin-amanlığa və tərəqqiyə doğru addımlarını davam etdirsin".

Bütün sadalananlar onu göstərir ki, Azərbaycan regionda münaqişələrin dərinləşməsinə yox, əməkdaşlığın və münasibətlərin güclənməsinə xidmət edən dövlət olduğunu ortaya qoyur, yeni perspektivlərə köklənir. İlham Əliyevin layiq görüldüyü sülh mükafatları onu bu mükafatların ən alisi olan "Nobel" Sülh Mükafatına bir addım da yaxınlaşdırdı. Cənab Prezidentimiz dünyanı sülhə səsləyən liderlər arasında ön sıradadır və bu fəaliyyətində ona uğurlar arzulayırıq.



*Səyyad Aran*
*Milli Məclisin deputatı*

# "Ümummilli Liderin siyasi irsi"

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP Sumqayıt şəhər təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan "Ümummilli Liderin siyasi irsi" mövzusunda tədbir keçirilib.



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb.

Sonra Sumqayıt şəhər Heydər Əliyev Mərkəzi ziyarət edilib.

Mərkəzdə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ümummilli Liderin ölkəmizin tərəqqisi naminə həyata keçirdiyi islahatlar və irimiqyaslı layihələr Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam və inkişaf etdirilir.



Çıxış edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib: "Azərbaycan xalqı çox xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, onun inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi".



Dilarə Seyidzadə qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O, bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. "Mən "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımızın işğaldan azad olunmasını xüsusi vurğulamaq istəyirəm. O yumruqda xalqımızın birliyini görürəm. Bu, milli birlikdir, Heydər Əliyevin arzusunun real təsdiqidir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. O, xalqını və dövlətini dərin məhəbbətlə sevirdi və bu sevginin təcəssümü kimi Azərbaycana dövlətinə və xalqına sədaqətlə xidmət edən Lideri - cənab İlham Əliyevi bəxş etdi. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı, burada yeni həyata başlamaları hər birimizi qürurlandırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətə çevrilməsi naminə görülən işlər məhz Heydər Əliyev siyasətinin təntənəsidir", - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Tədbirdə, həmçinin YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Müzəffərova, Sumqayıt şəhər İcra Hakimiyyətinin sektor müdiri Gündüz Əliyev çıxış ediblər. Çıxışlarda bildirilib ki, Ulu Öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı kimi adını tariximizə əbədi həkk edib. Ümummilli Liderin qurucusu olduğu müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə davamlı inkişaf yolunda irəlilədiyi və yeni zirvələr fəth etdiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, uzun illər həm iqtisadi, siyasi, hərbi, həm də diplomatik sahədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Qazanılan bütün nailiyyətlərin təməlində isə Ulu Öndər Heydər Əliyevin zəngin irsi və ideyaları dayanır.

Sonra partiya sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# “Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi”

## 17 ölkənin gəncləri Bakıda bir araya gəlib

Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə aprelin 30-u və mayın 1-də Bakıda “Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi” mövzusunda beynəlxalq Gənclər Forumu keçirilir. Forumda 17 ölkədən gənc diplomatlar, tədqiqatçılar, beynəlxalq hüquq və səhiyyə sahələri üzrə mütəxəssislər, eləcə də gənclər təşkilatlarının nümayəndələri və tələbələr iştirak edirlər.

Tədbir çərçivəsində kolonializm və neokolonializmin müasir fəsadlarına qarşı mübarizədə gənclərin rolu, beynəlxalq əməkdaşlıq və həmrəylik mexanizmlərinin gücləndirilməsi məsələləri müzakirə olunur. Eyni zamanda, müstəmləkəçiliyə məruz qalmış ərazilərdə öz müqəddəratını təyinetmə prosesinin dəstəklənməsi, dekolonizasiya məsələlərinin sürətləndirilməsi və bu istiqamətdə mövcud problemlər ətrafında fikir mübadiləsi aparılır. Həmçinin, müstəmləkəçiliyə məruz qalmış ərazilərdə kolonial idarəçiliyə və neokolonial siyasətə son qoyulması, öz müqəddəratını təyinetmə prosesinin, eləcə də BMT-nin Dekolonizasiya siyahısına daxil edilmiş ərazilərin azad olmasının sürətləndirilməsi, digər müstəmləkələrin bu siyahıya daxil edilməsi, eləcə də hazırda müstəmləkə ərazilərində yerli əhalinin üzləşdiyi çoxsaylı problemlər, eyni zamanda, etnik azlıqlara qarşı repressiv siyasət aparan hökumətlərin təzyiqləri nəticəsində ölkələrini tərk etmək məcburiyyətində qalan gənclərlə bağlı məsələlərin həlli müzakirə olunur.

BTQ-dən bildirilib ki, hazırda müstəmləkə idarəçiliyi altında yaşayan gənc nəsil bir sıra ciddi çağırışlarla üzləşməkdədir: milli və mədəni kimliyin zəiflədilməsi, tarixi yaddaşın məhv edilməsi, ana dillərində təhsil, yaradıcılıq və inkişaf imkanlarının məhdudlaşdırılması. Bununla yanaşı, məcburi miqrasiya, sosial bərabərsizlik, yoxsulluq, yüksək işsizlik səviyyəsi, keyfiyyətli təhsilə çıxış imkanlarının məhdudluğu həmin gəncləri siyasi qərarvermə proseslərindən kənarda saxlayır və ölkənin gələcək idarəçiliyindən məhrum edir. Üstəlik, təbii və iqtisadi resursların istismarı əhalinin normal yaşayışına, təhsilə və səhiyyəyə əlçatanlığına ciddi maneə törədir. Keçmiş müstəmləkə ərazilərindəki gənclər isə bu gün də müstəmləkəçiliyin yaratdığı tarixi, iqtisadi, sosial və ekoloji fəsadların ağır nəticələrini hiss etməkdədir. “Xüsusilə, həyata keçirilən nüvə sınaqlarının ağır təsirləri bu gün də gənc ailələrin sağlamlığını və gələcək nəsillərin rifahını zədələməkdədir. Keçmiş müstəmləkə güclərinin reparasiya, mədəni irs və tarixi dəyərlərin restitusiyası, habelə qanunsuz istismardan əldə edilmiş gəlirlərin kompensasiyası məsələlərindən yayınmaqda davam etməsi Belçika və Niderland nümunəsində müşahidə edildiyi kimi tarixi ədalətin bərpasını ləngitməkdədir”, - məlumatda qeyd olunub.

Forumun ilk günündə - 30 apreldə tədbir iştirakçıları tanışlıq proqramı çərçivəsində ADA Universitetində olublar. Qonaqlar universitetin kampusu ilə tanış olub, burada yaradılan müasir tədris və tədqiqat mühiti barədə məlumatlandırılıblar. Universitetin əməkdaşları tərəfindən təhsil ocağının fəaliyyəti, beynəlxalq əməkdaşlıq imkanları və həyata keçirilən akademik proqramlar barədə ətraflı təqdimat edilib.






Forum iştirakçıları daha sonra 7 saylı “ASAN xidmət” mərkəzinə gəliblər. Qonaqlara Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti, vətəndaşlara göstərilən xidmətlərin operativliyi və şəffaflığı, eləcə də sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib. Bildirilib ki, milli brendə çevrilmiş “ASAN xidmət” modeli bu gün təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də maraq doğurur. Bu intellektual məhsulun ixracı istiqamətində artıq 30-dan çox ölkə və beynəlxalq təşkilatla əməkdaşlıq sənədləri imzalanıb.

“Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi” mövzusunda Beynəlxalq Gənclər Forumunun iştirakçıları 1 saylı DOST Mərkəzinin fəaliyyəti ilə də tanış olublar. Qonaqlara əvvəlcə mərkəzdə yaradılan iş mühiti və tətbiq olunan xidmət prinsipləri ilə bağlı məlumat verilib. Daha sonra onlar DOST modelinin mahiyyəti, təqdim etdiyi xidmətlər və idarəetmə mexanizmləri barədə ətraflı məlumat alıblar. Qeyd edilib ki, hazırda DOST mərkəzlərində 162 xidmət təqdim olunur və bu xidmətlərin 99 faizi rəqəmsallaşdırılıb. Bu isə xidmətlərə çıxışın zaman və məkan məhdudiyyətlərindən asılı olmamasını təmin edir. Vətəndaşlar xidmətlərdən mərkəzlərdə birbaşa müraciət, mobil xidmətlər, onlayn platformalar və çağrı mərkəzləri vasitəsilə yararlana bilirlər.

Vurğulanıb ki, xidmətlərin keyfiyyətinin təmin edilməsi məqsədilə ümumi keyfiyyət idarəetməsi prinsipləri tətbiq olunur və bu istiqamətdə “Dose Canvas” qiymətləndirmə alətindən istifadə edilir. Bu mexanizm xidmətlərin effektivliyinin ölçülməsinə və davamlı təkmilləşdirilməsinə imkan yaradır.

Forum iştirakçılarının DOST modelinə göstərdiyi maraq Azərbaycanın sosial xidmətlər sahəsində əldə etdiyi innovativ təcrübənin beynəlxalq səviyyədə paylaşılmasının əhəmiyyətini bir daha nümayiş etdirir.

Forum iştirakçısı, “Sigh Federation Canada” təşkilatının marketinq və ictimaiyyətlə əlaqələr üzrə direktoru Akashdeep Singh bildirib ki,tarixi baxımdan zülm və işğala qarşı mübarizə apararaq müstəqillik əldə etmiş bir ölkə kimi Azərbaycan belə dialoqlar üçün uyğun bir platformadır. O, qeyd edib ki, Afrika və digər koloniyalaşdırılmış ölkələrə yaxınlığı, həmçinin Avropa İttifaqına və digər regionlara çıxış imkanları Azərbaycanı mərkəzi bir əlaqə nöqtəsinə çevirir: “Bundan əlavə, ölkənin bu cür müzakirələrə açıq və dostyana yanaşması da Azərbaycanın seçilməsində vacib amildir”.

Forum iştirakçısı, Kabuntu təşkilatının sədri Katambara Romain isə deyib ki, Bakı Təşəbbüs Qrupu müstəqillik ideyalarını dəstəkləyir: “Reunion adasından gəlməyim mənim üçün xüsusi əhəmiyyət daşıyır, çünki bu ada hələ də Fransa müstəmləkəsi olaraq qalır”.

O, forumun nəticəsi olaraq Afrika və Azərbaycanda yaşayan gənclər arasında şəbəkələşmənin formalaşacağına inandığını söyləyib: “Bu cür əlaqələr gələcəkdə ölkəmizin həqiqi müstəqilliyinin əldə olunmasında mühüm rol oynaya bilər”.

*Nardar BAYRAMLI*

# Azərbaycanın qlobal şəhərsalma və urban siyasətində artan rolu

Azərbaycan paytaxtı qlobal iqlim sammitindən - COP29-dan sonra Ümumdünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi edəcək. Bu il mayın 17-22-də Bakı Olimpiya Stadionunda təşkil olunacaq WUF13 Azərbaycan paytaxtının böyük miqyaslı beynəlxalq forumları qəbul etmə qabiliyyətini nümayiş etdirir və urban idarəetmə sahəsində yeni yanaşmaların tətbiqi üçün real platforma yaradır. Tədbirə ev sahibliyi ölkənin inklüzivlik, əlçatanlıq və dayanıqlı inkişaf prinsiplərinə verdiyi önəmi də ortaya qoyur.

BMT-nin İnsan Məskənləri Proqramı (UN-Habitat) tərəfindən təşkil edilən forum şəhərlərin gələcəyi, inklüziv inkişaf, iqlim dəyişikliklərinə uyğunlaşma və sosial ədalət kimi aktual məsələlərin müzakirə olunduğu beynəlxalq dialoq məkanıdır. Eyni zamanda, forum yalnız fiziki məkanın təşkilini deyil, həm də sosial ədalət, bərabər iştirak və universal dizayn prinsiplərinin inteqrasiyasını nümayiş etdirir.

## Beynəlxalq birliyin ölkəmizə böyük inamı

Ümumdünya Şəhərsalma Forumunun paytaxtımızda keçirilməsinə qərar verilməsi beynəlxalq birliyin ölkəmizə olan böyük inamının daha bir ifadəsidir. Respublikamız xoş məramını ortaya qoymaqla və öz imkanlarını təqdim etməklə daim qlobal həmrəyliyin və əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfələr verir.




Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının Azərbaycanda keçirilməsi isə ölkənin beynəlxalq urban siyasəti və qlobal əməkdaşlıq proseslərində artan rolunun göstəricisi kimi qiymətləndirilir. Tədbirə Bakı şəhərinin ev sahibliyi etməsi yalnız təşkilati məsuliyyət deyil, həm də şəhərsalma sahəsində əldə edilən təcrübənin dünyaya təqdim olunması üçün strateji imkandır. Bu kontekstdə Bakı həm Şərq, həm də Qərb şəhər inkişaf modellərinin kəsişməsində yerləşən dinamik urban mərkəzi kimi təqdim olunur. Azərbaycan unikal şəhərsalma təcrübəsinə malik olan ölkədir. 2024-cü ilin əvvəlində təqdim olunan Bakı şəhərinin Baş Planı ölkəmizin müasir şəhərsalma çağırışlarına yanaşmasını aydın şəkildə nümayiş etdirir.

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir.

Bakı şəhərinin WUF13-ə ev sahibliyi etməsi yalnız böyükmiqyaslı beynəlxalq tədbirin təşkili deyil, həm də Azərbaycanın müasir urban inkişaf strategiyasının qlobal səviyyədə təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu forum vasitəsilə Azərbaycan şəhər mühitində əlçatanlıq, inklüzivlik və dayanıqlılıq prinsiplərinin tətbiqinə dair real təcrübəsini beynəlxalq ictimaiyyətlə bölüşmək imkanı əldə edib.

Azərbaycan öz ənənəsinə sadiq qalmaqla Ümumdünya Şəhərsalma Forumuna da böyük məsuliyyətlə yüksəksəviyyəli hazırlıqlar həyata keçirib. Təbii ki, bu zaman müxtəlif qruplardan olan iştirakçılar üçün inklüzivlik əsas meyarlardan biri kimi götürülüb. Tədbirin keçiriləcəyi Olimpiya Stadionunun ümumi infrastrukturunun planlanması ilkin mərhələdən etibarən əlçatanlıq prinsiplərinə uyğun şəkildə həyata keçirilib. Məkanın memarlıq və funksional strukturu panduslar, liftlər, geniş keçidlər və taktil yollarla tamamlanaraq fiziki maneələrin minimuma endirilməsinə xidmət edir. Bu yanaşma sonradan əlavə uyğunlaşdırma deyil, əvvəldən planlanmış universal dizayn konsepsiyasına əsaslanır və müasir tədbir təşkilatçılığında qabaqcıl model hesab olunur.

Bələdçi itlərin tədbir məkanına tam girişinə icazə verilməsi isə inklüzivliyin yalnız insanyönümlü deyil, həm də xidmət heyvanlarını əhatə edən geniş konsepsiya olduğunu göstərir. Onlar üçün ayrılmış istirahət zonaları və baytarlıq xidməti sistemli rifah yanaşmasının tərkib hissəsidir. Bu, insan və heyvan rifahının eyni ekosistem daxilində nəzərə alındığını nümayiş etdirir və inklüzivlik anlayışını genişləndirir.

Eşitmə və nitq məhdudiyyəti olan iştirakçılar üçün tətbiq olunan həllər informasiya bərabərliyi prinsipinə əsaslanır. Azərbaycan və ingilis dillərində işarə dili tərcüməsi, real vaxt transkripsiya sistemi və portativ induksiya qulaqcıqları tədbir məzmununun hər kəs üçün əlçatan olmasını təmin edir. Bu texnologiyalar yalnız məlumatın ötürülməsini deyil, onun eyni vaxtda və eyni keyfiyyətdə qəbul edilməsini hədəfləyir. Beləliklə, kommunikasiya maneələri minimuma endirilir və iştirakçılar arasında bərabər informasiya axını təmin olunur.

## İnklüzivlik əsas meyarlardan biri kimi

Fiziki əlçatanlıq yalnız hərəkət imkanları ilə məhdudlaşmır, həm də funksional dəstək sistemləri ilə tamamlanır. Təkərli oturacaq istifadəçiləri üçün xüsusi qeydiyyat masası, texniki yardım məntəqəsi, ehtiyat təkərli oturacaqlar və elektrik oturacaqlar üçün enerji təminatı bu yanaşmanın sistemli xarakter daşıdığını göstərir. Texniki xidmət nöqtəsi yalnız problem həll etməyə deyil, həm də preventiv dəstək göstərməyə yönəlib. Bu, “reaktiv xidmət” modelindən “proaktiv inklüzivlik” modelinə keçidi ifadə edir. İstifadə üçün isə 20-si manual, 20-si elektrikli olmaqla 40 ədəd ehtiyat təkərli oturacaq da iştirakçılara təqdim olunacaq.

Bundan əlavə inklüzivliyin tam təmin olunması məqsədilə geniş miqyaslı maarifləndirmə təlimlərinə start verilib. Ümumilikdə 4 min 200 nəfəri əhatə edən proqram çərçivəsində fərqli peşə qruplarına aid iştirakçılar üçün xüsusi təlim materialları hazırlanıb.

Görmə məhdudiyyətli iştirakçılar üçün yaradılmış sistem çoxsəviyyəli orientasiya və informasiya əlçatanlığına əsaslanır. Əsas girişdə yerləşdirilən taktil xəritə məkanın ümumi strukturunu toxunma vasitəsilə anlamağa imkan verir. Brayl əlifbası ilə hazırlanmış materiallar və qapılarda yerləşdirilən nişanlar informasiya müstəqilliyini artırır. Taktil yollar iştirakçıların əlavə yardım olmadan istiqamət tapmasına şərait yaradır. Yüksək kontrastlı işarələr və təhlükəsizlik nişanları isə vizual qavrayışı gücləndirərək riskləri azaldır. Audio naviqasiya sistemi isə məkan daxilində rəqəmsal və səs əsaslı yönləndirmə təmin edir.

## Hamı üçün informasiya bərabərliyi

Həmçinin koqnitiv əlilliyi olan iştirakçılar üçün nəzərdə tutulan sakit otaqlar inklüzivlik siyasətinin psixoloji və emosional aspektini əks etdirir. A və B zonalarında yerləşən bu otaqlar 20 kvadratmetr sahəyə malik olmaqla, yumşaq işıqlandırma, səssiz mühit və rahat mebellə təmin olunub. Bu məkanlar sensor yüklənmədən uzaqlaşmaq, emosional tənzimlənmə və qısa fasilələr üçün istifadə olunur. Eyni zamanda, “Günəbaxan” bilərzik sistemi görünməyən ehtiyacların tanınmasına xidmət edir və iştirakçının əlavə izahat vermədən dəstək almasını təmin edir.

Nəqliyyat infrastrukturu WUF13-ün inklüzivlik modelinin mühüm komponentlərindən biridir. Əlçatan avtobuslar, uyğunlaşdırılmış taksi xidməti və metro imkanları şəhər daxilində maneəsiz hərəkət sistemini formalaşdırır. Xüsusilə yalnız təkərli oturacaq istifadəçiləri üçün nəzərdə tutulmuş ödənişsiz əlçatan taksi xidməti sosial bərabərlik prinsipinin praktik tətbiqidir.

*Mübariz ABDULLAYEV*

# Aİ yeni təhlükəsizlik çətiri axtarışında

## Qoca qitə öz təhlükəsizliyini Ukraynaya etibar edə bilərmi?

Bir vaxtlar Avropa İttifaqı (Aİ) məkanı bütöv və təhlükəsiz görünürdü. Ancaq son vaxtlarda baş verənlər bunun parıltılı illüziyadan başqa bir şey olmadığını ortaya qoydu. Xüsusilə də Ağ Evin yeni administrasiyasının Şimali Atlantika Alyansına (NATO) münasibətdə fərqli yanaşma sərgiləməsi, üzv ölkələrdən maliyyələşməni artırmaq tələbində israrlı mövqe tutması, hətta ABŞ-ın qurumu tərk etmək ehtimalını gündəmə gətirməsi Avropa İttifaqını yeni təhlükəsizlik çətiri axtarışına sövq edib.

Baş verənər fonunda dərk olunur ki, Avropanın təhlükəsizlik sisteminin yenilənməsinə böyük ehtiyac var. Əks halda, D.Trampın səsləndirdiyi fikirlər reallıqda təsdiqini taparsa, qoca qitə gözlədiyi və zaman-zaman ətrafında müzakirələr apardığı müharibə riskləri qarşısında adekvat olmayan müdafiə vəziyyətində qala bilər. Əgər bir vaxtlar Avropa İttifaqı məkanının müdafiəsinin məsuliyyəti NATO vasitəsi ilə ABŞ-ın üzərinə düşürdüsə (hər halda buna böyük əminlik var idi - red.), indi bu yükü Aİ-nin özü çəkməlidir.

### Avropa Komissiyası hərəkətə keçib - ˆ131 milyardlıq hərbi büdcə yetərli olacaqmı?

Təbii ki, ləng davranmaq üçün zaman yoxdur və yaxud çox azdır. Cari ilin əvvəlində Avropa Parlamentinin Təhlükəsizlik və Müdafiə Komitəsinin (SEDE) hesabatında artıq Rusiya Aİ təhlükəsizliyinə əsas təhdid kimi müəyyən edilib. Sənəddə bildirilir ki, Aİ İkinci Dünya müharibəsindən bəri milli təhlükəsizliyə ən ciddi təhdidlə üzləşir. Bu təhdid Ukraynadakı münaqişə, eləcə də “daha geniş hibrid təhdidlər, terrorizm, kiberhücumlar, kritik infrastruktur və iqlim dəyişikliyi ilə bağlı risklər” ilə əlaqələndirilir . Bundan əlavə, sənəddə Çin “strateji rəqib” kimi müəyyən edilib

Yaranmış çağırışlar fonunda paralel şəkildə həm mövcud vəziyyət, risk amilləri nəzərə alınmaqla ideyalar verilməli, həm də məsələlərin praktiki müstəvidə operativ həllinə nail olunmalıdır. Artıq Avropa Komissiyasının hərəkətə keçdiyi və müvafiq strategiyanın üzərində işə başlanıldığı barədə xəbərlər gəlir. Strategiyanın çərçivəsi özündə bütün məlumatları toplamaq, dünyada davam edən geostrateji dəyişiklikləri və mövcud ehtiyacları, eləcə də geosiyasi dəyişiklikləri sənədləşdirmək və onlara adekvat cavab vermək məqsədini ehtiva edir.

İlk növbədə onu qeyd edək ki, bir vaxtlar Trampın NATO maliyyələşməsini artırmaq tələbini ciddiyə almayan Avropa Komissiyası indi bəhs olunan reallıq fonunda Aİ-nin hərbi büdcəsini 10 dəfə artırmaq niyyətindədir. Aİ-nin müdafiə üzrə komissarı Andryus Kubilyus bildirib ki, Avropa Komissiyası 2028-2034-cü illəri əhatə edəcək yeni yeddiillik büdcədə hərbi xərcləri kəskin şəkildə artırmağı planlaşdırır. Onun sözlərinə görə, hərbi büdcənin ˆ13 milyarddan ˆ131 milyarda çatdırılması nəzərdə tutulur.

Qurum rəsmisi Avropa Parlamentində çıxışı zamanı bildirib ki, mövcud təhlükəsizlik çağırışları fonunda müdafiə və kosmik proqramlar üzrə maliyyələşmənin artırılması zəruridir və bu istiqamətdə heç bir kompromisə yol verilməməlidir. Kubilyus qeyd edib ki, ˆ131 milyardlıq məbləğ minimum hədd kimi qiymətləndirilməlidir.

Həmçinin Avropa Təhlükəsizlik Şurasının yaradılması ehtimalı da nəzərdən keçirilir. İlkin müzakirələrdə vurğulanıb ki, yeni qurum yüksək səviyyədə, xüsusilə də böhran vəziyyətlərində müdafiə sahəsində operativ qərarlar qəbul etmək səlahiyyətinə malik olmalıdır. Bu təşəbbüs Almaniya və Fransa tərəfindən Aİ sammitlərinin səmərəsizliyi və Avropada vahid müdafiə strategiyasına ehtiyac fonunda irəli sürülüb.



### Almaniya Avropanın “güclü vuran əli olmaq” hədəfində nə qədər səmimidir?

Avropa Komissiyasında qoca qitənin ümumi təhlükəsizlik strategiyasının müzakirələri aparıldığı bir vaxtda milli səviyyələrdə də yeni hərbi doktrinalara keçid edilməsi gündəmə gətirilib. Burada Almaniyanın fəllığı xüsusilə diqqət çəkir. Rəsmilərin açıqlamalarından məlum olur ki, bu ölkə qarşısına “Avropanın güclü vuran əli olmaq” hədəfini qoyub. Beləliklə, Almaniya Rusiyanı əsas təhdid kimi göstərdiyi ilk genişmiqyaslı hərbi strategiyasını elan edib. Ölkənin silahlı qüvvələri üçün ilk müstəqil hərbi strategiya sayılan sənəd “Bundeswehr”in planlaşdırılmasında son onilliklərin ən əhatəli yenilənməsi hesab olunur. Almaniyanın müdafiə naziri Boris Pistorius jurnalistlərə açıqlamasında deyib: “Hərbi strategiyaya nadir hallarda bu tarixi mərhələdə olduğu qədər ehtiyac duyulub”.

Almaniyanın yeni hərbi doktrinasında iki mühüm istiqamətə xüsusi vurğu edilir. Bunlardan biri ordunun say tərkibinin artırılmasıdır. Şəxsi heyətin artırılması planına görə, hazırda 185 min 420 olan peşəkar hərbçi sayı 2030-cu illərin ortalarınadək 260 minə çatdırılacaq. Bununla yanaşı, hazırda sayı 60 min olan ehtiyat qüvvə ən azı 200 minə çatdırılacaq. Ümumilikdə 2039-cu ilədək 460 min döyüşə hazır hərbçidən ibarət qüvvə formalaşdırılması nəzərdə tutulur. Bununla da Almaniya say tərkibi baxımından Avropanın ən güclü ordusunu formalaşdırmış olacaq.

Digər mühüm istiqamət hərbi büdcənin artırılmasını əhatə edir. Gözlənilir ki, 2029-cu ildə Almaniya orduya 162 milyard avro xərcləyəcək. Xatırladaq ki, 2025-ci ildə bu rəqəm cəmi 95 milyard avro olub.

“Avropa üçün məsuliyyət” adı ilə təqdim olunan yeni strategiyanın üç mərhələdə reallaşdırılması nəzərdə tutulur: 2029-cu ilə qədər sürətli böyümə, 2035-ci ilə qədər qabiliyyət yönümlü genişlənmə və 2039 və sonrakı dövrü əhatə edən uzunmüddətli texnologiya yönümlü mərhələ.

Məlumdur ki, Almaniya XX yüzillikdə Avropanı dəhşətli müharibə alovunun içinə atıb. Bu ölkənin rəvac verdiyi çoxillik müharibədə milyonlarla insan həyatını itirib, yüzlərlə şəhər və kənd dağıntılara məruz qalıb. Uzun illər ərzində ehtimal olunurdu ki, Almaniyanın silahlanmanı prioritet hədəf kimi önə çəkməməsi səbəb olduğu dəhşətli müharibəyə görə mənəvi məsuliyyətindən irəli gəlib. Bəs indi Almaniya Avropanın “güclü vuran əli olmaq” hədəfində nə qədər səmimidir?

### Avropa üçün Ukrayna “dərsləri”

Dəyişən geosiyasi reallıqlar fonunda Avropanın təhlükəsizliyinin təmin olunması zərurətinin kritik nöqtəyə çatdığı bir məqamda qoca qitə üçün Ukrayna “dərsləri”nin önəmi gündəmə gəlib. Məlumdur ki, Qərb dünyasında Ukraynada gedən müharibə eyni zamanda Avropa uğrunda müharibə kimi səciyyələndirilir. Ümumi qənaət belədir ki, Avropa İttifaqı öz təhlükəsizliyini özünün fiziki sərhədləri daxilində deyil, məhz Ukraynada təmin etməlidir. Bu fikri belə də ifadə etmək mümkündür: Aİ öz mənafeyi naminə Ukraynanın məğlubiyyətinə imkan verməməlidir. Bu baxımdan müharibənin lap əvvəlindən Avropa İttifaqı ölkələrinin Ukraynaya dəstək vermələri başadüşüləndir. Son 4 ildə Ukrayna kollektiv Qərbin, xüsusilə də Avropa İttifaqının hərtərəfli dəstəyindən bəhrələnib. Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sərt sanksiyalar, Ukraynaya göstərdiyi davamlı maliyyə və texniki dəstək bu ölkənin müqavimət imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

Lakin müşahidə edilən odur ki, Ukrayna son 4 ildə yalnız Qərb tərəfdaşlarından aldığı silahlarla müharibə aparmaqla kifayətlənməyib, paralel şəkildə özünün müdafiə sənayesini inkişaf etdirməyə nail olub. Burada Ukraynaya üstünlük qazandıran bir məqamı xüsusi vurğulamaq lazımdır. Bu ölkə müdafiə sənayesinin inkişaf xəttini məhz müasir müharibələrin tələblərinə uyğun istiqamətləndirməyi bacarıb ki, bu da onun böyük uğurudur. Bəli, indi müharibələrin xarakteri dəyişib. Son illərin müharibələrində yerüstü ağır texnikaya tələbatın azaldığı, bunun əvəzində dronlara, pilotsuz uçuş aparatlarına, uzaq mənzilli raketlərə tələbatın artdığı müşahidə edilir. Verilən məlumatlardan aydın olur ki, müharibənin ağır şərtləri Ukraynanı sındırmayıb, əksinə onun müqavimət immunitetini gücləndirib. Belə ki, bu ölkə qısa müddətdə hərbi sənayesini müasir müharibələrdə kəskin ehtiyac duyulan innovativ silahların istehsalına istiqamətləndirməyi bacarıb. Hazırda Ukraynanın əlində olan dron əleyhinə sistemlərin dünyada analoqu yoxdur. Bu gün Ukraynanın öz istehsalı olan pilotsuz uçuş aparatları min kilometr məsafə qət etməklə Rusiyanın dərinliklərində yerləşən strateji obyektləri nöqtə zərbələri ilə məhv edir. PUA-ların istehsalı Kiyevə ucuz başa gəlir, onların səmada sıradan çıxarılmasına isə bahalı raketlər tələb olunur. Beləliklə də, ucuz başa gələn uçan aparatlar qarşı tərəf üçün müharibəni daha bahalı edir və onun imkanlarını məhdudlaşdırır. Bundan başqa, Ukraynanın qara dənizdə blokadanı aradan qaldırmağa nail olması dünya üçün böyük təcrübədir. Qeyd edək ki, Kiyev dəniz blokadasını yarmağa məhz “Sea Baby” və “Magura” tipli dəniz dronları sayəsində nail olub.

İndi dünya Ukraynanın təcrübəsindən və məxfi dron texnologiyasından bəhrələnmək istəyir. V. Zelenskinin mart ayında Yaxın Şərq regionuna reallaşdırdığı səfəri çərçivəsində Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər və İordaniya kimi ərəb dünyasının aparıcı ölkələri ilə 10 illik strateji hərbi əməkdaşlıq müqavilələri imzalaması bunun əyani təsdiqidir. Bu müqavilələr ilk növbədə Ukraynanın dost ölkələrə innovativ silah tədarükünü əhatə edir. Artıq Ukraynanın müvafiq texnologiyalarına hətta ABŞ-da da ehtiyac yarandığı açıq şəkildə etiraf olunur. Qeyd edək ki, Ukrayna 2026-cı il iyunun 30-dək Vaşinqtonla planlaşdırılan razılaşma çərçivəsində ABŞ-a dron tədarükünə başlamağı planlaşdırır.

Beləliklə, ciddi təhlükəsizlik problemi ilə üzləşən Avropa İttifaqı üçün yol müəyyən mənada asan görünür. Qoca qitə son dörd ildə çətin müharibədə dayaq durduğu Ukraynanın “dərslərindən” öyrənmək və bu ölkənin təcrübəsindən bəhrələnmək imkanına malikdir. Artıq bununla bağlı müzakirələr də başlayıb. Yeri gəlmişkən. V.Zelenski bildirib ki, Ukrayna əvvəllər Yaxın Şərqdə və Fars körfəzi ölkələrində keçirilən danışıqlarda qəbul edilmiş təhlükəsizlik üzrə öz təkliflərinin Avropa hissəsini hazırlayır. Kiyevin Avropanın təhlükəsizliyi üçün hazırladığı planın bəzi mühüm istiqamətləri artıq bəllidir. Buraya

- birgə istehsal,
- modernləşdirmə,
- müdafiə sahəsində maliyyələşdirmə proqramları,
- təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətlərin koordinasiyası kimi strateji əhəmiyyət daşıyan istiqamətlər daxildir.

Bundan başqa, Kiyev uzun müddətdir ki, vahid Avropa silah sənayesi ideyasından çıxış edir. Qeyd edək ki, bu ideya qoca qitədə ayrı-ayrı səviyyələrdə dəstəklənib və onun detalları ətrafında müzakirələr aparılıb. Beləliklə, Avropa öz təhlükəsizliyini Ukraynaya etibar edə bilərmi? Sual ritorik olsa da, Ukrayynanın keçdiyi yol və qazandığı təcrübə bu barədə düşünməyə əsas verir.

***Mübariz FEYİZLİ***

# Hörmüz boğazı kimlərin üzünə açıqdır?

## Çin gəmisindən sonra Yaponiya tankeri də üzü Şərqə doğru yol aldı

Aprelin 13-dən başlayaraq Hörmüz boğazı ətrafında davam edən gərginlik artmaqdadır. Qeyd edək ki, aprelin 12-də İslamabadda keçirilən danışıqlar zamanı tərəflərin ortaq mövqeyə gəlməməsi boğazda blokada vəziyyətini reallaşdırdı - ABŞ İranın Hörmüz boğazını bağlaması və gəmilərin keçidindən rüsum tələb etməsi qarşılığında bölgədə blokada elan edib. 20 günə yaxındır davam edən blokadanı isə yaran bəzi gəmilər tapılır.

**Kimlər keçə bilər...**

Qeyd edək ki, münaqişənin ilk günlərində rəsmi Tehran İranın dost hesab etdiyi ölkələrə məxsus gəmilərin Hörmüz boğazından keçməsinə icazə verdiyini açıqlamışdı. Bildirilmişdi ki, xüsusən də Rusiya, Çin, İraq, Hindistan və Pakistan bu boğazdan istifadə edə bilər. İranın Beynəlxalq Dəniz Təşkilatındakı nümayəndəsi Əli Musavi bildirmişdi ki, İran Hörmüz boğazında naviqasiya təhlükəsizliyini təmin etmək üçün Beynəlxalq Dəniz Təşkilatı ilə işləməyə hazırdır. O vurğulamışdı ki, Hörmüz boğazı “İranın düşmənləri” ilə əlaqəli gəmilər istisna olmaqla, bütün gəmilər üçün açıqdır - yeganə şərt boğazdan keçidin yalnız Tehranla təhlükəsizlik tədbirlərinin koordinasiyası ilə mümkün olmasıdır.

İran prezidenti Məsud Pezeşkian da Hörmüz boğazının İran sərhədlərini pozan ölkələr istisna olmaqla, bütün ölkələrin gəmiləri üçün açıq olduğunu bəyan etmişdi.

**Yaponiya rüsumsuz keçdi - Tokio nə demək istəyir?**

Bu arada Yaponiyanın “Idemitsu Maru” tankeri Hürmüz boğazından keçib. İran mediası “Idemitsu Kosan” şirkətinə məxsus tankerin İranın yardımı ilə Hörmüz boğazından keçdiyini yazıb. Təxminən 2 milyon barel neft daşıyan nəhəng gəmi fevralın sonundan bəri Səudiyyə Ərəbistanı sahillərində gözləmə mövqeyində idi və bölgədəki gərginlik səbəbindən hərəkəti məhdudlaşmışdı. Qərb mediası isə gəminin rüsum ödəyərək boğazdakı hərəkətini davam etdirdiyini bildirib.

Bunun qarşılığında Yaponiya hökuməti gəminin keçməsi üçün İrana hər hansı ödəniş etməsi barədə yayılan məlumatları təkzib edib. “Nikkei” qəzetinin məlumatına görə, rəsmi Tokio gəminin təhlükəsiz keçidini təmin etmək üçün Tehranla hər hansı maliyyə sövdələşməsinə girməyib. Tokiodakı yüksək rütbəli rəsmilərdən biri qeyd edib ki, gəminin boğazdan sərbəst keçidi hər hansı rüsum və ya xüsusi ödənişin nəticəsi deyil, birbaşa hökumətlərarası diplomatik təmasların və aparılan danışıqların bəhrəsidir.

Bir sıra siyasi şəhrçilər Yaponiyaya məxsus gəminin boğazdan sərbəst keçidini və hökumətin məhz bu mövqedən açıqlama yaymasını bir sıra məqamlarla izah edir. Bildirilir ki, Yaponiya bununla həm də heç bir vəziyyətdə İrana qarşı hərbi əməliyyatlara qoşulmayacağını bəyan edir. Başqa sözlə, Tokio yeni koalisiyada iştirak etməyəcəyini bu şəkildə bildirir. Xatırladaq ki, ABŞ-ın boğazda formalaşdırdığı blokada dövründə Vaşinqtonun sanksiya siyahısında olan Çinə məxsus




“Rich Starry” tankeri də Hörmüz boğazından keçib. Bununla bağlı “CNN” telekanalı “Marine Traffic” xidmətinin məlumatlarına istinadən xəbər yaymışdı. Bildirilmişdi ki, gəmi metanol daşıyır və onun təyinat məntəqəsi kimi Çin göstərilib. Qeyd edək ki, Çin körfəz bölgəsində hərbi-dəniz mövcudluğunu gücləndirəcəyini və öz ticarət gəmilərinin müşayiət edəcəyini açıqlamışdı - Çin Xarici İşlər Nazirliyinin sözçüsü Li Jian vurğulamışdı ki, Pekin Hörmüz boğazı üzərindən daşımaları davam etdirəcək və İranla bağlanmış enerji müqavilələrini yerinə yetirməkdə qərarlıdır.

**İran xahiş edir...**

Yayılan məlumatlara görə, qarşılıqlı blokada nəticəsində boğazdan gəmi tranziti 95 faiz azalıb. ABŞ Prezidenti Donald Tramp isə aprelin 28-də Truth Social media platformasında İranın Hörmüzü açmaları üçün ondan xahiş etdiyini yazıb. Tramp bildirib ki, İran ona “çöküş vəziyyətində” olduğunu deyib.. “Onlar ölkə rəhbərliyi ilə vəziyyəti həll etməyə çalışarkən (və əminəm ki, edəcəklər!), bizdən Hörmüz boğazını mümkün qədər tez açmağımızı istəyirlər”.

Reuters agentliyinin məlumatına görə, Amerika liderinin paylaşımında mesajın hansı kanallar vasitəsilə alındığı göstərilməyib. Xatırladaq ki, Tehran son dəfə ABŞ-a üçmərhələli təklif təqdim etmişdi. Birinci mərhələ ABŞ-ın İrana qarşı hərbi əməliyyatları bərpa etməyəcəyinə dair zəmanətləri özündə ehtiva edirdi. İkinci mərhələ isə Hörmüz boğazını İran ticarət gəmiləri üçün açmaq idi. Bu, həmçinin İranın boğaz üzərində nəzarəti saxladığı müddətdə boğazın gələcəyini müəyyən etmək məqsədi daşıyırdı. Yalnız bundan sonra Tehran uzunmüddətli nüvə proqramı da daxil olmaqla digər məsələləri müzakirə etməyə hazır olacağını bildirmişdi.

**“Tramp boğazı”...**

ABŞ prezidenti Donald Tramp sosial şəbəkədəki qeyri-adi paylaşımı ilə yenidən diqqət mərkəzinə düşüb. Amerika lideri özünə məxsus “Truth Social” platformasında yeni coğrafi obyektin, “Tramp boğazı”nın əks olunduğu xəritəni paylaşıb. Təqdim olunan görüntüdə Fars və Oman körfəzlərinin xəritəsi yer alıb və burada tankerlərin məhz “Tramp boğazı”ndan keçərək hərəkət etdiyi göstərilib. Beləliklə, ABŞ lideri qlobal neft tədarükünün mühüm hissəsinin daşındığı dünyanın ən strateji dəniz dəhlizlərindən birini ironik formada yeni adla adlandırıb. Qeyd edək ki, paylaşım aprelin 30-u axşam saatlarında paylaşılıb.

**Aİ də Hörmüzlə bağlı şərtlərini irəli sürdü**

Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen İranla mümkün sülh sazişinin əldə olunması üçün Avropa İttifaqının (Aİ) əsas şərtlərini bəyan edib. Sülh şərtlərinin mühüm bəndlərindən biri kimi Hörmüz boğazında gəmiçilik təhlükəsizliyinin tam təmin olunması və heç bir hansı rüsum ödənilmədən sərbəst hərəkətin bərpası tələbi irəli sürülüb. Fon der Leyen “təhlükəsizlik bölünməzdir” prinsipini xatırladaraq, Hörmüz boğazında bir ticarət gəmisinə yönəlmiş təhdidin birbaşa Avropadakı sənaye müəssisələrinə təhdid olduğunu bildirib.

***SADİQ***

# 12-ci telefon danışığı...

## Yaxın Şərqdə və Mərkəzi Avropada eyni anda sülh bərpa ola bilər

Qlobal dünyanı narahat edən ən böyük problemlərdən biri Rusiya-Ukrayna müharibəsi Yaxın Şərqdə qarşıdurmaların başlanması ilə ikinci plana keçmiş kimi görünür. Rusiya ilə Ukrayna arasında gedən sülhyaratma missiyasının bu ilin fevral ayından etibarən "taym-aut" götürməsi, üçtərəfli və ya ikitərəfli formatlarda görüşlərin təşkil olunmaması vəziyyətin daha da gərginləşməsinə yol aça bilər. Bu isə təbii ki, böyük narahatlıqlar yaradır.

ABŞ Prezidenti Donald Trampın şəxsi səyi nəticəsində danışıqlar mərhələsinə qədəm qoyan Rusiya-Ukrayna münasibətlərində yeni bir dönüş gözlənilir. Bu məqam ABŞ Prezidenti ilə Rusiyanın dövlət başçısı arasında baş tutan növbəti - 12-ci telefon danışığının əsas məzmunu olub. Qeyd edək ki, iki prezident arasında son telefon danışığı martın 9-da baş tutmuşdu. Bir saat yarımdan çox davam edən telefon danışığı zamanı bir çox məsələlər müzakirə predmeti olub.

**Kiçik bir atəşkəs...**

Telefon danışığı ilə bağlı fikirlərini bölüşərkən ABŞ prezidenti söhbəti yaxşı qiymətləndirib. O, Putinin Ukrayna problemi ilə bağlı həll yolu tapmaqda maraqlı olduğunu söyləyib. "Düşünürəm ki, Putin Ukrayna ilə bağlı həll yolu görmək istəyir. Bu yaxşıdır", - deyə Tramp əlavə edib. ABŞ prezidenti Rusiya liderinin əvvəllər də razılaşmaya açıq olduğunu, lakin "bəzi insanların" buna mane olduğunu söyləyib. Tramp Putinə "kiçik bir atəşkəs" təklif etdiyini və Rusiya liderinin "buna razı ola biləcəyinə" inandığını bildirib: "Mən kiçik bir atəşkəs təklif etdim. Düşünürəm ki, o bunu edə bilər".

## Putin və Tramp bir saat yarım nələri müzakirə ediblər?

**Rusiya da istəmir...**

Tramp müzakirələr zamanı Yaxın şərq prosesinə də toxunulduğunu bildirib. Onun sözlərinə görə, Putin İranın nüvə silahına sahib olmasında maraqlı deyil. "Putin də İranın nüvə silahına sahib olmasını istəmir", - deyə Tramp vurğulayıb. Amerika lideri qeyd edib ki, Putin İranın zənginləşdirilmiş uran məsələsinin həllində kömək təklif edib, lakin Tramp bundan imtina edib: "Dedim ki, Ukraynadakı münaqişənin sona çatmasında iştirak etməyinizi üstün tuturam". O, həmçinin əlavə edib ki, Tehranla razılaşma yalnız onun nüvə proqramından imtina etməsi halında mümkündür.





**193 əsir mübadilə edilib**

Rusiya prezidentinin köməkçisi Yuri Uşakov da telefon danışığı ilə bağlı fikirlərini bölüşüb. İki prezident arasında əvvəllər də bu tip fikir mübadiləsinin aparıldığını söyləyən Uşakov Trampın Ukraynadakı döyüşlərin tez bir zamanda dayandırılmasına çağırış etdiyini, Vaşinqtonun bu prosesdə yardıma hazır olduğunu dediyini vurğulayıb. Uşakov bildirib ki, Trampın xüsusi nümayəndələri Moskva və Kiyev arasındakı dialoqu davam etdirəcəklər.

Uşakov onu da söyləyib ki, Putin Trampa İranla atəşkəsin uzadılması qərarının düzgün olduğuna inandığını bildirib. Rusiya prezidenti bildirib ki, bu, danışıqlara yol açmalı və ümumiyyətlə Yaxın Şərqdə vəziyyətin sabitləşməsinə kömək etməlidir.

Amerikalı həmkarı Donald Trampla telefon danışığı zamanı Vladimir Putin Rusiyanın 2025-ci ilin əvvəlindən bəri Ukraynaya 20 mindən çox cəsədin təhvil verildiyini və bunun müqabilində 500-dən bir qədər çox cəsədi geri aldıqlarını da deyib. Qeyd olunub ki, cəsədlərin dəyişdirilməsinə əlavə olaraq, hər iki tərəf hərbi əsirlərin qaytarılması üçün də iş aparır. Ən son belə mübadilə aprelin 24-də gerçəkləşib - hər iki tərəf müvafiq olaraq 193 hərbçini geri qaytarıb.

**Yeni atəşkəs təklifi: Ukrayna şərtləri istəyir, Rusiya isə...**

Qarşıdakı ayda qısa da olsa Ukrayna ilə Rusiya arasında atəşkəs də baş verə bilər. Putin Trampa 9 may Faşizm Üzərində Qələbə Günü mərasimi ilə bağlı Şimal-Şərq Hərbi Dairəsində atəşkəs elan etməyə hazır olduğunu bildirib. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, Donald Tramp bu təşəbbüsü fəal şəkildə dəstəkləyib: "Donald Tramp bildirdi ki, bayram İkinci Dünya Müharibəsində nasizm üzərində ortaq qələbəni özündə əks etdirir". Uşakov deyib ki, Tramp Pasxa atəşkəsinə də müsbət reaksiyasını qeyd edib.

Ukrayna isə ABŞ-dan Rusiyanın Qələbə Günü şənlikləri üçün təklif etdiyi atəşkəs şərtləri barədə aydınlıq gətirməsini istəyib. Ukrayna Prezidenti Volodimir Zelenski bunu Telegram kanalında açıqlayıb. Zelenskinin sözlərinə görə, ABŞ Prezidenti Donald Trampın komandasına müraciətinin məqsədi dəqiq nəyin müzakirə olunduğunu, o cümlədən hərbi əməliyyatların dayandırılmasının müddətini aydınlaşdırmaqdır. O bildirib ki, Ukrayna sülh axtarır və nizamlama üçün lazım olan diplomatik işləri həyata keçirir. "Bizim təklifimiz uzunmüddətli atəşkəsdir, insanlar üçün etibarlı təhlükəsizlik və davamlı sülh təmin edir. Ukrayna istənilən ləyaqətli və effektiv formatda buna doğru çalışmağa hazırdır", - deyə Zelenski qeyd edib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov isə atəşkəsin konkret şərtlərinin açıqlanacağını bildirib. Bildirilib ki, söhbət "kiçik bir atəşkəs" təklifindən gedir. Vurğulanmalıdır ki, 9 may Qələbə Günü ilə bağlı atəşkəs ötən il də təklif edilmişdi. Lakin Zelenski o zaman Rusiyanın təklifini rədd etmişdi.

**İki müharibə eyni vaxtda bitə bilər...**

Rusiya və ABŞ prezidentləri arasında telefon danışığı zamanı Donald Tramp Vladimir Putinə Ukraynadakı münaqişənin həlli üçün razılaşmanın əldə edilməsinin yaxın olduğunu söyləyib. Yuri Uşakov bildirib ki, Amerika prezidenti münaqişənin həlli üçün mümkün olan hər şeyi etmək niyyətini bir daha təsdiqləyib. O, əlavə edib ki, Trampın xüsusi nümayəndələri həm Rusiya, həm də Ukrayna tərəfləri ilə əlaqələri davam etdirəcəklər.

Qeyd edək ki, ABŞ Pezidenti Donald Tramp da telefon danışığı ilə bağlı məlumatında vurğulamışdı ki, İran və Ukraynadakı müharibələr eyni qrafik üzrə bitə bilər.

**Pentaqon 400 mlyonluq yardımı bərpa etdi - Aİ isə yaxınlaşdırma planı hazırlayır**

Bu arada Ukraynanın sürətləndirilmiş üzvlük ideyasını qəbul etməyən Avropa İttifaqı (Aİ) Kiyevlə tədricən yaxınlaşmanın alternativ formatlarını nəzərdən keçirir. Bu barədə "Politico" nəşri diplomatlara istinadla məlumat yayıb. Qəzetin yazdığına görə, sürətləndirilmiş üzvlük ideyası martda keçirilən görüşdə rədd edilib. Üzv dövlətlər əsas islahatlar başa çatanadək Ukraynanın Aİ-yə qəbul olunmasını qeyri-mümkün hesab ediblər.

Hazırda Brüssel Kiyevin tam üzvlükdən əvvəl bir sıra siyasi və iqtisadi üstünlüklər əldə etməsinə imkan verəcək qısamüddətli tədbirlər paketi hazırlayır. Paketə bazara çıxışın genişləndirilməsi, Avropa proqramları və institutlarında daha fəal iştirak etmək daxildir. Nəzərdən keçirilən variantlar arasında tədrici inteqrasiya konsepsiyası da var. Eyni zamanda, nəşrin mənbələri vurğulayır ki, Brüssel Ukraynanın Aİ-yə qoşulması kursunu saxlasa da, yaxın gələcəkdə bunu real hesab etmir.

Pentaqon isə aylarla gecikmədən sonra Ukraynaya ayrılan 400 milyon dollarlıq hərbi yardımla bağlı vəsaiti bərpa edib. Bu sözləri müharibə katibi Pit Heqset Konqresdə çıxışı zamanı deyib. O, yardım üçün ayrılan vəsaitin bərpa edildiyini bildirib.

**P.İSMAYILOV**

# ABŞ pul siyasətini dəyişmədi

## Federal Ehtiyat Sistemi qlobal riskləri nəzərə alaraq uçot dərəcəsini sabit saxlayıb

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Mərkəzi Bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) aprelin 29-da keçirilən iclasında 2026-cı ilin üçüncü pul siyasəti qərarını açıqlayıb. Qərara əsasən, faiz dərəcəsi 3,50- 3,75 aralığında sabit saxlanılıb. Bu, FES-in aşağı uçot siyasətinin davam etdirilməsi niyyətini əks etdirir. Xatırladaq ki, FES hazırkı 3,5-3,75 faizlik uçot dəhlizini 2025-ci il dekabrın 10-da 25 baza bəndi endirməklə müəyyən edib. Bu isə mövcud uçot dərəcəsinin 2022-ci ilin sonundan bəri ən aşağı səviyyədə qaldığını əks etdirir. Açıq Bazar Əməliyyatları üzrə Federal Komitənin heyəti hazırkı faiz dərəcəsini maliyyə sisteminin dayanıqlılığı üçün qənaətbəxş hesab edir.

### İnflyasiya yüksəlib, işsizlik səviyyəsi azalmır

FES-in təmkinli pul siyasətinə üstünlük verməsi və mövcud stavkanı saxlaması daxili və xarici risklərdən gələn siqnallarla sıx bağlıdır. Daxili risklər sırasında ABŞ-ın makroiqtisadi göstəricilərində hələ də özünü doğrultamayan bəzi bazar indikatorları dayanır. Belə ki, ABŞ-da istehlakçı əhvalı rekord səviyyədə zəif qalmaqdadır, inflyasiya gözləntilərinin sürətlənməsi, digər tərəfdən ABŞ-İran gərginliyinin enerji marşrutları üzərindən yaratdığı risklər, təhlükəsiz liman tələbi, əmtəə qiymətləri və qlobal risk iştahası pul bazarına birbaşa təsirlər edir. Birinci rübün nəticələri və aprel indeksləri ABŞ iqtisadiyyatında daxili tələbin zəif olduğunu, inflyasiya təzyiqlərinin davam etdiyini və bu qeyri-müəyyənliklər fonunda investorların sərmayə davranışlarını ehtiyatlı saxladığı müşayiət olunur. İqtisdi rəqəmlərlə bağlı son göstəricilər bazarların həssaslığını yüksək saxladığına dəlalət edir.

Ölkədə ilin ilk rübü ərzində iqtisadi fəaliyyət sabit şəkildə davam edib, əmək bazarı güclü qalır və işsizlik səviyyəsi son aylarda əhəmiyyətli dəyişiklik göstərməyib. İstehlakçı indeksi aprel ayında 49,8 səviyyəsinə qalxsa da, bu yenə də tarixdə qeydə alınmış ən zəif göstərici sayılır. Eyni zamanda birillik inflyasiya gözləntiləri 3,8 fazidən 4,7 faizə yüksəlib ki, bu, 2025-dən bəri ən kəskin aylıq artımdır. Mövcud mənzərə bazarda mürəkkəb qiymətləndirmə dalğaları yaratmaqdadır. ABŞ fond bazarı qarışıq mənzərə də davam edir, "Dow Jones" indeksi son bir həftədə 0,2 faiz geriləyərək 49.2 bəndə enib, "S&P 500" və "Nasdaq" indeksləri isə rekord səviyyələrdə durğunluq nümayiş etdirib ki, bu hadisə bazar iştirakçılarını həm risklərdən müdafiə olunmağa, həm də selektiv addımlar atmağa məcbur edib.

Xarici risklər sırasında isə ABŞ-İran gərginliyi fonunda zəif makrosiqnalların qlobal bazar indekslərinə təsirləri göstərilir. Son bir ayda ABŞ, da volatillik trayektoriyası üzrə hərəkət edir ki, bu da qeyri-müəyyənlikləri daha da artırır. "Bitcoin"in qiyməti gah qalxır, gah da aşağı düşür. Qızılın



### Hörmüz boğazı maliyyə bazarlarının "baş ağrısına" çevrilib

Avrozona ölkələri, eləcə də Böyük Britaniyada müşahidə edilən göstəricilər, həmçinin Hörmüz boğazı ətrafında artan risklər dollar, qızıl, neft, kriptovalyutalar və əsas fond indekslərində dalğalanmanın güclənməsi risk portfelini ağırlaşdırır. Doğrudur, Yaxın Şərqdə risklərin artması fonunda ABŞ dollarına tələb güclənib, digər xarici valyutalar - Avstraliya dolları həftə ərzində təxminən 0,71 faizbənd ucuzlaşıb. Kriptovalyuta bazarı qiymət hərəkətliliyi də ziddiyyətli qalmaqdadır, aprelin 24-də qızılın unsiyası 4740-a yüksəlib də, son 2 gündə sarı metal təxminən 3 faiz ucuzlaşıb.

Hörmüz boğazı amili isə qlobal narahatlığın əsas nöqtəsi kimi qalır. ABŞ-İran gərginliyinin enerji daşımalarının kritik keçid nöqtəsi sayılan Hörmüz boğazına fokuslanması, bazarda enerji axınlarına fasilə riskini yenidən gündəmə gətirməklə, qiymətlərinin yüksəlişi hələ də qalır. Neftin qeyri-sabit qiyməti yalnız enerji sektoruna deyil, həm də daha geniş bazar spektrlərinə təsir edir, yüksək enerji qiymətləri inflyasiyanı qidalandırır, mərkəzi bankların siyasət trayektoriyasında qeyri-müəyyənliyi artırır və səhm bazarlarında sektorlararası fərqlənməni dərinləşdirir. Bu səbəbdən əmtəə bazarı, valyuta seqmentləri və indekslər üçün gərgin mühit davam edir.

### Avropa və Asiya Mərkəzi Bankları da mühafizəkar pul siyasəti yürüdür

ABŞ FES-i ilə yanaşı, Avropa Mərkəzi Bankı, İngiltərə Bankı, Kanada Bankı, Yaponiya Mərkəzi Bankı da faiz qərarlarında təmkinli və mühafizəkar qərarlar verib. Qlobal bank icması hazırkı qlobal təhdidlər fonunda belə bir addımın fayda verəcəyinə inanmadığından aşağı dəhlizi dəstəkləmir. Mərkəzi Bank rəhbərlərinin açıqlamalarından belə qənaət yaranır ki, Yaxın Şərq böhranı ehtiyatlı pul siyasətinin davam etdirilməsi üçün uzun müddət əsas amil olaraq qalacaq.

Niderlandın qlobal maliyyə institutu "ING" qrupu bildirib ki, Hörmüz boğazı üzərindən neft ixracının may və iyun aylarında mərhələli şəkildə yenidən başlamasının gözləyir. Lakin qurum ilin böyük hissəsində ixracın müharibədən əvvəlki səviyyələrdən aşağı qalacağını proqnozlaşdırır. Bank qeyd edib ki, daha uzun müddət davam edəcək normallaşma prosesi anbar məhdudiyyətləri səbəbilə dayandırılmış istehsalın mərhələli şəkildə yenidən işə salınmasına imkan verə bilər.

Gərginliklər bir neçə ay davam etsə, Mərkəzi Bankın faiz dərəcələrini aşağı salması tamamilə gündəlikdən çıxarılacaq, əksinə faiz dərəcələrinin artırılması mümkün ola bilər.

Beləliklə, FES-in sabit uçot dərəcəsi qlobal mühitdə qeyri-müəyyənliklərin davam etməsinə səbəb olacaq, investorların kapital daralması fonunda gözləmə mövqeyində durmasını şərtləndirəcək. ABŞ-la yanaşı, qlobal investorlar arasında investisiya alətlərinin qızıl və kriptovalyuta yığımlarına transformasiyasını yeni səviyyədə saxlayacaq. Qlobal səhmdarlar, iri şirkətlər, suveren fondlar faiz dəhlizinin təsirləri fonunda investisiya alətlərinin dəyərini qoruyub saxlamağa üstünlük verəcək. Çünki neft sıçrayışlarının fond bazarlarını sarsıtma ehtimalı böyükdür və dünya iqtisadiyyatında qlobal müəyyənsizliyin artması səhmdarların digər sahələrə də sərmayələrini azaltmağa məcbur edəcək.

**E.CƏFƏRLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Zəhmətin günü...



Mayın 1-i təqvimdə sadəcə bir gün kimi görünsə də, əslində bu tarix zəhmətkeş insanların səsinin, haqqının və əməyinin rəmzinə çevrilib. Bu gün bir çox ölkədə "Beynəlxalq zəhmətkeşlər bayramı" kimi qeyd olunur. Mayın 1-i bizə sadəcə keçmişi xatırlatmır, həm də sahib olduğumuz bir çox hüquq və imkanların arxasında dayanan böyük zəhməti, fədakarlığı və bəzən də ağır mübarizələri yada salaraq insan əməyinə hörmətin nə qədər vacib olduğunu bir daha xatırladır. Bu gün hər kəsi düşünməyə vadar edir ki, inkişafın əsasında duran ən böyük güc məhz insanın zəhmətidir.

## 1 May haqqında bilmədiklərimiz

Vaxtilə 1 may keçmiş Sovet İttifaqında xüsusi təntənə ilə qeyd olunduğundan demək olar ki, proletariatın bayramı kimi təqdim edilirdi. Bu bayram bu gün də bir çox ölkələrdə qeyd edilir. Ayrı-ayrı dövrlərdə 1 May bayramı fərqli adlar daşıyıb: Dünya Fəhlələrinin Həmrəylik günü, Dünya Zəhmətkeşlərinin Həmrəylik günü, Əmək günü, Beynəlmiləlçilik günü, Əmək və Bahar günü və s.

Yeri gəlmişkən, 1 May bayramı ilə bağlı ayrı-ayrı ölkələrdə yeni ənənələr də yaranıb. Məsələn, həmin gün Fransada qızlara zanbaq gülü hədiyyə edilir. İtaliyada isə gül festivalı keçirilir. Almaniyada bayram münasibətilə yarmarkalar açılır. Həmin yarmarkalarda sakinləri rəqs və digər əyləncələrlə qarşılayırlar. İsveçdə isə mayın 1-də isveçlilər evdən çıxardıqları tullantıları yandırırlar.

SSRİ dağıldıqdan sonra Rusiyada bu bayram Əmək və bahar bayramı, Finlandiyada tələbələrin bahar karnavalı kimi qeyd edilir. 1996-cı ildən Qazaxıstanda 1 May tarixi xalqın birlik bayramı kimi qeyd olunur. İngiltərədə həmin gün milli paltar geyinən sakinlər rəngli lentlər bağlanmış dirəklərin ətrafında rəqs edərək dünyaya sülh və əmin-amanlıq arzulayırlar. Belarusda, Qırğızıstanda, Çində, Şri-Lankada 1 May bayramı əmək bayramı adı ilə qeyd olunur.

**Bayramın tarixi**

Qeyd edək ki, ilk dəfə 1856-cı ildə Avstraliyada 8 saatlıq iş gününün tətbiq edilməsi ilə bağlı bayramın qeyd olunması ortaya çıxıb. Bu ölkədə yerli işçilər artıq toplantı və əyləncə ilə əlaqədar səkkiz saatlıq iş gününün lehinə nümayiş olaraq bir günlük özlərini tamamilə işdən azad etməyi qərara alıblar. Bununla da proletar bayramı ortaya çıxıb, daha sonra digər ölkələrə yayılıb və getdikcə bütün proletar dünyasını fəth edib. Avstraliyalı əməkçilərin bu nümunəsini daha sonra amerikalılar təkrarlayıb. Belə ki, 1 May 1886-cı ildə, demək olar ki, bütün sənaye mərkəzlərində - Nyu-York, Çikaqo, Filadelfiya və Baltimorda 200 mindən çox işçi boykota başlayıb. Çikaqoda 80 min fəhlə haqları olan "8 saatlıq iş günü" tələbi altında sıx sıralarla möhtəşəm yürüş keçirib.

Ümummilli boykotun və aksiyaların yayılmasından qorxan sahibkarlar silahlı əsgərlərlə yanaşı, həm də casus provakatorlar tutaraq hücuma keçib. 3 may günü "McCormic" fabrikinin qarşısında onlara qatılmayan digər işçiləri boykota qoşulmağa çağıran silahsız işçilərə atəş açılıb və bir işçi öldürülüb. İşçilər bu qanlı hadisəni protest etmək üçün mitinq keçirmək qərarına gəliblər.

4 may günü işçilər daha güclü bir mitinq təşkil ediblər. Mitinqin qurtarmasına az qalmış yüzlərlə polis meydana girib. Bir az sonra isə mənşəyi və haradan gəldiyi bəlli olmayan bir bomba polislərin olduğu yerə düşüb. Bomba atılandan sonra mitinq bölgəsi qanlı savaş meydanına çevrilib. İşçilər güllə yağışına tutulublar. 4 işçi və 7 polis ölüb, onlarla işçi isə yaralanıb. Həmkarlar ittifaqlarının sədrləri və işçi hərəkatının 8 lideri tutulub.

Məhkəmədən sonra fəhlə hərəkatının liderlərindən olan 4 şəxs - Avgust Spies, Albert Parsons, Corc Engel və Adolf Fişer edama məhkum ediliblər.

1889-cu ilin iyulunda Parisdə toplanan II İnternasionalın 1-ci Konqresində 1 May tarixi dünya zəhmətkeşlərinin birlik, mübarizə günü olaraq qəbul edilib. Hər ilin 1 May tarixini mitinqlər, aksiyalar və boykotlarla qeyd etmək qərara alınıb. Sovet İttifaqında bu bayram dünyada ən möhtəşəm səviyyədə keçirilirdi. Mayın 1-də şəhərlərdə böyük nümayişlər keçirilər, möhtəşəm bayram əhval-ruhiyyəsi hökm sürərdi. Peşəsində fərqlənən əməkçilərə mükafatlar, fəxri adlar verilər, Sovet İttifaqının paytaxtına - Moskvaya dünyanın bütün ölkələrindən dəvət olunan qonaqlara sosializmin nəyə qadir olduğu nümayiş etdirilərdi.

**Bayramı hansı ölkələr kütləvi şəkildə qeyd edir?**

Hazırda dünyanın 100-dən artıq ölkəsində ictimai bayram kimi, 70-ə yaxın ölkəsində isə dövlət səviyyəsində rəsmi bayram günü olaraq qeyd edilir. Onların arasında Rusiya, İspaniya, Portuqaliya, Yunanıstanı qeyd etmək olar. Xüsusən də Çin, Şimali Koreya, Vyetnam, Kuba, Venesuela, Boliviyada bu bayram kütləvi şəkildə qeyd olunur. ABŞ və Yaponiyada əmək bayramı bugünkü tarixdə deyil, başqa təqvimdə qeyd edilir.

*Yeganə BAYRAMOVA*

# Çiçəklər açır, asqırıq dayanmır...

## Yaz allergiyası ilə necə mübarizə aparmalı?

*Yeganə BAYRAMOVA*

Yazın ilk nəfəsi yayılan kimi təbiət yenidən canlanır, ağaclar çiçəkləyir, havada xoş ətirlər dolaşır və günəş şüaları insanın ruhunu isidərək ona yeni enerji bəxş edir. Lakin bütün bu gözəlliklərin fonunda bəzi insanlar üçün bu mövsüm eyni zamanda narahatlıq yaradır. Qaşınma, asqırma və bitmək bilməyən allergik reaksiyalarla müşayiət olunan çətin bir dövr başlayır. Sanki təbiətin oyanışı ilə birlikdə insan orqanizmi də öz daxilində görünməz bir mübarizəyə başlayır. Bu mübarizə, hər nə qədər zahirdə sadə görünsə də, gündəlik həyat keyfiyyətinə ciddi təsir göstərərək yazın gətirdiyi sevincə kölgə sala bilir.

Yaz allergiyası əsasən havada uçan polenlər - ağacların, otların və müxtəlif bitkilərin mikroskopik tozcuqları səbəbindən yaranır. İmmun sistemi bu hissəcikləri təhlükəli hesab edərək həddindən artıq reaksiya verir, nəticədə isə burun axıntısı, qaşınma, gözlərdə yanma hissi, hətta yorğunluq kimi əlamətlər ortaya çıxır ki, bu da gündəlik fəaliyyəti xeyli çətinləşdirə bilər.

**Allergik rinit mövsümi xarakter daşısa da...**

Allerqoloq-həkim İsmayıl Nəcəfli "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, yazda orqanizmimizdə baş verən proseslər özünü allergik rinit, allergik dermatit, allergik konyunktivit və daha fərqli formalarda göstərə bilər: "Allergik rinit mövsümi xarakter daşısa da, il boyu müalicəyə ehtiyac var. Mövsümi allergik rinitdə pasiyentlər hər il yaz və payız başlamadan dərman müalicəsi almalıdırlar. Ortalama müalicə 20 gündür. Mövsüm başladıqdan sonra müalicə gedərsə, effekti daha zəif olur. Yəni allergik təzahürlər azalır, lakin burun rahatlamır. Ona görə də müalicə vaxtında başlamalıdır".



**Müalicə yalnız belə aparılmalıdır**

Həkim qeyd edib ki, allergiyanın müalicəsi yalnız dərmanlar və spreylərdir: "Allergik rinitin müalicəsində sadəcə burun spreyi istifadəsi yanlışdır. Ən çox istifadə olunmalı burun spreyləri tərkibində stereoid və antistamin molekulları olanlardır. Bunlardan əlavə, antistamin qrupuna aid tabletlər də qəbul olunmalıdır. Günümüzdə allergik rinitin başqa müalicə üsulu yoxdur. Digər mövcud üsullar yalnız köməkçidir".

**Allergiyalı şəxslər hansı qidalardan çəkinməlidirlər?**

İ.Nəcəfli vurğulayıb ki, bu mövsümdə ən çox qida allergiyalarına da rast gəlinir: "Ümumiyyətlə, dünyada təxminən 100 qidaya qarşı allergiyanın yarandığı sübut olunub. Allergiyalı xəstələr sitrus meyvələri, giləmeyvə, süd, şokolad, dəniz məhsulları və çərəzlərlə qidalanmaqdan çəkinməlidirlər. Beləliklə, xəstəlik tam müalicə olunmasa da, onu vaxtında müalicə edərək allergen təsir göstərən vasitələrdən uzaqlaşmaq olar. Bunun üçün allergen-test adlanan analiz növündən istifadə etmək kifayətdir. Həmin üsulla allergiya yaradan qida və dərmanları müəyyən etmək mümkündür".

**Tozlanma başa çatdıqda xəstəlik də bitir**

Həkim qeyd edib ki, hər insanda allergiya müxtəlif zamanlarda baş verə bilər: "Bitkilərin tozlanması əsasən yazda baş verir. Bu səbəbdən, müxtəlif bitkilərə qarşı allergiyası olan insanlar həmin dövrdə kəskin şəkildə əziyyət çəkirlər. Amma digər mövsümlərdə tozlanan bitkilərə qarşı allergiyası olan şəxslər də mövcuddur. Yayda tozlanan taxıl bitkilərinə qarşı kiminsə allergiyası varsa, bu, özünü həmin fəsildə göstərir. Ona görə də sadəcə yaz allergiyası demək doğru deyil. Bitkinin tozlanması başa çatdıqda dərman istifadə edib-etməməyimizdən asılı olmayaraq, allergiya da başa çatır. Bu problem hər il təkrarlanır".

**Fəsadlar qalır?**

Allerqoloqun sözlərinə görə, müalicə olunmadıqda və ya nəzarətsiz qaldıqda yaz allergiyası bəzi fəsadlara səbəb ola bilər: "Məsələn, burun və sinusların xroniki iltihabı, tez-tez təkrarlanan sinusit, yuxu keyfiyyətinin pozulması, gündüz yorğunluğu və diqqət azalması kimi hallar ortaya çıxa bilər. Daha ciddi hallarda isə uzunmüddətli allergik iltihab bronxların həssaslığını artıraraq bronxial astma inkişaf riskini yüksəldə bilər. Buna baxmayaraq, düzgün diaqnoz və vaxtında başlanmış müalicə ilə bu fəsadların böyük əksəriyyətinin qarşısını almaq mümkündür. Xəstəlik adətən idarə oluna bilən bir vəziyyətə çevrilir, yəni insan tam normal həyat sürə bilir, sadəcə mövsümi dövrlərdə müəyyən profilaktik və müalicə tədbirlərinə əməl etməsi kifayət edir".

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5275
Sifariş: 550
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova